## Allahşükür Paşazadə Vatikanda Roma Papası ilə görüşüb



**Roma Papası I Fransisk Vatikanda Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam Hacı Allahşükür Paşazadənin rəhbərlik etdiyi dinlərarası nümayəndə heyətini qəbul edib.**

Trend-in məlumatına görə, bunu Azərbaycanın Fransadakı və Vatikandakı səfiri Rəhman Mustafayev öz "Twitter" səhifəsində yazıb.

Onun sözlərinə görə, görüş zamanı Cənubi Qafqazda əməkdaşlıq, sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə töhfə verə biləcək addımlar müzakirə olunub.

*Azərbaycanın tolerantlıq və dinlərarası dialoq üzrə siyasəti Vatikan tərəfindən yüksək qiymətləndirilib.*

## Ukraynaya dəstək veriləcək

Avropa İttifaqı Şurasının Prezidenti Rusiyaya xəbərdarlıq edib



**"Rusiya Ukraynaya hərbi müdaxilə edərsə, biz buna çox fəal və qətiyyətlə cavab verəcəyik".**

"Report" TASS-a istinadən xəbər verir ki, bunu Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel söyləyib.

"Biz prosesləri çox yaxından izləyirik. Ukraynadakı durumun tənzimlənməsinə dəstək verməyə tam hazırıq", - o bildirib.

*Şarl Mişel həmçinin Minsk razılaşmalarını dəstəklədiyini söyləyib.*



## Yolunu azan erməni çoban sülhməramlılara verilib

**Dünən saat 16:00 radələrində Azərbaycan-Ermənistan dövlət sərhədinin Laçın rayonu ərazisində Surik Matevosyan adlı şəxsin yolu azaraq Azərbaycan sərhədini keçməsi müəyyən olunub.**

Bu barədə "Şərq"ə Azərbaycan Müdafiə nazirliyindən məlumat verilib.

Məlumata görə, S.Matevosyan Rusiya sülhməramlılarına təhvil verilib.

*Xatırladaq ki, Ermənistan silahlı qüvvələrinin yanvarın 11-i günorta saatlarından etibarən başlatdığı təxribat nəticəsində Azərbaycan-Ermənistan dövlət sərhədinin Kəlbəcər rayonu istiqamətində vəziyyət gərginləşib.*


№ 7 (5529), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 14 yanvar 2022-ci il (cümə)




## Tarixi hadisə gerçəkləşdi

Prezident İlham Əliyev: "Azərbaycan dövləti bərpaolunan enerjiyə çox böyük önəm verir"

**"Biz yeni enerji növlərinin istehsalı ilə ciddi məşğul olmalıyıq".**

Bunu Prezident İlham Əliyev Azərbaycanda inşa ediləcək 240 MVt gücündə "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının yanvarın 13-də Gülüstan sarayında təməlqoyma mərasimində çıxışı zamanı deyib. Dövlət başçısı vurğulayıb ki, xüsusilə dünyada hökm sürən maliyyə böhranı, eyni zamanda, pandemiya ilə bağlı iqtisadi fəallığın təbii olaraq azalması - bütün bunlar mənfi amillərdir.

(səh.2)

## Aİ Rusiyaya qarşı iqtisadi sanksiyaların müddətini 6 ay uzadıb



**Avropa İttifaqı (Aİ) Şurası Rusiyaya qarşı iqtisadi sanksiyaların müddətini 6 ayadək uzadıb.**

APA-nın məlumatına görə, bu barədə Aİ-nin yaydığı bəyanatda bildirilib.

"Bu gün Aİ Şurası Rusiya iqtisadiyyatının bəzi sektorlarında qüvvədə olan məhdudlaşdırıcı tədbirlərin altı ay müddətinə, yəni 2022-ci il iyulun 31-dək uzadılması barədə qərar qəbul edib", bəyanatda qeyd edilib.

# Sülh prosesi ləngiyir

## Ərdoğan Ermənistana növbəti çağırışını edib



"Ermənistan sülh istiqamətində real addım atmazsa və təxribatlara davam edərsə, cavabı çox ağır olacaq"

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ankarada Avropa İttifaqının səfirləri ilə görüşündə Ermənistana çağırış edib. Ərdoğan bildirib ki, Azərbaycanın işğal altındakı torpaqlarını azad etməsindən sonra Cənubi Qafqazda yeni mərhələyə qədəm qoyulub.**

Türkiyə lideri diqqətə çatdırıb ki, prosesin ardından Türkiyə Ermənistanla münasibətlərin normallaşması prosesinə başlayıb: "Atılan addımların gözlənilən nəticələri verməsi üçün Ermənistanın bölgədəki sülh fürsətini yaxşı dəyərləndirib Azərbaycanla pozitiv bir münasibət qurması əhəmiyyət daşıyır".

(səh.3)



## Delimitasiya prosesinə başlamaq lazımdır

Rusiya gərginlikdən qaçmağın əsas həlli yolunu bunda görür

**Rusiya Ermənistan-Azərbaycan sərhədində vəziyyətin gərginləşməsindən ciddi narahatdır və tərəfləri münaqişənin hərbi yolla həllindən çəkinməyə çağırır.**

Bu barədə Rusiya XİN-in sözçüsü Mariya Zaxarova məlumat verib.

Zaxarova gərginlikdən qaçmağın əsas həllini sərhədin delimitasiya və demarkasiya prosesinin başlanmasında gördüyünü bildirib.

O qeyd edib ki, bu məsələdə Rusiya hərtərəfli yardım etməyə hazırdır.

## Xankəndiyə qanunsuz səfərlərə şərait yaradılır

Rus sülhməramlılarının fəaliyyəti Bakını qane etmir

**"Digər qıcıq doğuran məsələ odur ki, biz görürük, Qarabağa, Xankəndiyə və Rusiya sülhməramlı qüvvələrinin nəzarətində olan digər yerlərə gələnlərin sayı gedənlərin sayı ilə böyük fərq təşkil edir".**

Bunu Prezident İlham Əliyev yanvarın 12-də yerli televiziya kanallarına müsahibəsində deyib. Dövlət başçısı qeyd edib ki, Rusiya sülhməramlıları çalışırlar giriş sərbəst olsun, çıxışda isə müəyyən problemlər yaşansın. Ölkə rəhbərinin sözlərinə görə, daha çox insan oradan gedir...

(səh.2)





## Yanvarın 15-də maqnit qasırğası gözlənilir

**Yanvarın 15-də ölkədə maqnit qasırğasının baş verəcəyi proqnozlaşdırılır.**

Bu barədə Trend-ə AMEA-nın N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanasından məlumat verilib.

Bildirilib ki, 13-14 yanvar tarixlərində geomaqnit sahədə əsasən sakit şəraitin davam etməsi gözlənilir. 15 yanvar tarixində günün ilk saatlarında sakit şəraitin olacağı, günün sonuna doğru tac dəliyindən çıxan axınlarla əlaqədar olaraq, G1 sinifli (zəif) maqnit qasırğasının baş verəcəyi proqnozlaşdırılır. Proqnoz dövründə Kp indeksin 2-5 intervalında olacağı gözlənilir.

## Son sutkada 674 nəfər koronavirusa yoluxub

10 nəfər vəfat edib, 509 nəfər müalicə olunaraq sağalıb

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 674 yeni yoluxma faktı qeydə alınıb, 509 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 10 nəfər vəfat edib.

*İndiyədək ölkədə ümumilikdə 623 555 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 607 397 nəfər müalicə olunaraq sağalıb, 8 490 nəfər vəfat edib, aktiv xəstə sayı 7668 nəfərdir.*



## "Rusiya çürüyür, Qazaxıstandan da, Qarabağdan da çıxacaq"

Zərdüşt Əlizadə: "2500 əsgər gəlib Qazaxıstanı işğal etdi? Bu, mümkün deyil axı"

(səh.4)

## Quterreş həyəcan təbili çaldı

Rusiya ilə ABŞ və NATO arasındakı dialoq kritikdir



(səh.2)

# Tarixi hadisə gerçəkləşdi

## Prezident İlham Əliyev: “Azərbaycan dövləti bərpaolunan enerjiyə çox böyük önəm verir”




**“Biz yeni enerji növlərinin istehsalı ilə ciddi məşğul olmalıyıq”. Bunu Prezident İlham Əliyev Azərbaycanda inşa ediləcək 240 MVt gücündə ”Xızı-Abşeron” Külək Elektrik Stansiyasının yanvarın 13-də Gülüstan sarayında təməlqoyma mərasimində çıxışı zamanı deyib. Dövlət başçısı vurğulayıb ki, xüsusilə dünyada hökm sürən maliyyə böhranı, eyni zamanda, pandemiya ilə bağlı iqtisadi fəallığın təbii olaraq azalması - bütün bunlar mənfi amillərdir. Amma buna baxmayaraq, qardaş ölkənin şirkəti Azərbaycana böyük həcmdə investisiya qoyuluşuna qərar verib:**

”Bu gün biz Xızı rayonunda inşa ediləcək 240 meqavat gücündə külək elektrik stansiyasının təməlini qoyuruq. Onu da bildirməliyəm ki, Azərbaycan müstəqillik dövründə uzun illər ərzində öz enerji təhlükəsizliyinin təmin edilməsi üçün fəal çalışıb. Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, həm xam neft, həm təbii qaz, neft məhsulları və elektrik enerjisini daxili tələbatı ödəmək üçün tam istehsal edir və eyni zamanda, bu dörd məhsulu dünya bazarlarına ixrac edir. Beləliklə ölkəmizin enerji təhlükəsizliyi tam təmin edilib və ildən-ilə artan təbii qazın ixracı və elektrik enerjisinin ixracı digər ölkələrin enerji təhlükəsizliyinə də müsbət təsir göstərir. Ancaq onu da bilməliyik ki, ölkə sürətlə inkişaf edir. Keçən ilin yekunlarına görə, bizim neft və qazla bağlı olmayan, yeni qeyri-neft sənayemiz təxminən 20 faiz artıbdır. Ölkə əhalisi artır, tələbat artır. Ona görə təbii ki, biz yeni enerji növlərinin istehsalı ilə ciddi məşğul olmalıyıq”.

**“İqtisadi sahədə çox böyük perspektivlər var”**

**Dövlət başçısı qeyd edib ki, bərpaolunan enerji növlərinin istehsalı enerji sahəsində bizim gündəliyimizdə duran ən başlıca vəzifələrdən biridir:** ”Onu da bildirməliyəm ki, işğaldan azad edilmiş ərazilərdə, Cəbrayıl rayonunda hazırda böyük günəş elektrik stansiyasının tikintisi ilə bağlı danışıqlar, müzakirələr aparılır. Bu stansiyanın enerji istehsalı potensialı da 240 meqavata bərabər olacaq. Deyə bilərəm, aparılmış dəqiq təhlil nəticəsində bəlli oldu ki, işğaldan azad edilmiş ərazilərdə bütövlükdə 10 min meqavata yaxın bərpaolunan külək və günəş elektrik enerjisinin istehsalı mümkündür. Əlbəttə, biz çox istərdik ki, dost ölkələrin investorları, şirkətləri bu imkanları da araşdırsınlar və bizimlə bərabər bu böyük layihələrə start versinlər”. Ölkə rəhbəri vurğulayıb ki, iqtisadi sahədə çox böyük perspektivlər var: ”Təbii ki, biz birlikdə energetika sahəsində OPEC+ formatında fəal çalışırıq: ”Deyə bilərəm ki, OPEC+ formatı yaradılandan bu günə qədər Səudiyyə Ərəbistanı ilə Azərbaycanın əməkdaşlığında xüsusi rol oynamışdır. Bu formatda iştirak edən digər ölkələrlə bərabər biz neftin qiymətinin sabitləşməsinə nail ola bilmişik”.

**“Günəş və külək elektrik stansiyalarının yaradılması ilə bağlı konkret planlarımız var”**

**Prezident diqqətə çatdırıb ki, Azərbaycan həm daxili tələbatı tam ödəyir, eyni zamanda, bütün qonşu ölkələrə elektrik enerjisi ixrac edir:** ”Qonşu ölkələrlə bizi birləşdirən yüksək gərginlikli enerji xətləri bu imkanı bizə yaradır, lazım olarsa, yeni xətlər də çəkilər”. Prezident İlham Əliyevin sözlərinə görə, çünki region ölkələrində və eyni zamanda, Avropada elektrik enerjisinə tələbat artır: ”Bəzi ölkələr nüvə elektrik stansiyalarının bağlanması ilə əlaqədar qərar qəbul ediblər, biz, eyni zamanda, kömürlə işləyən elektrik stansiyalarının bağlanması prosesini müşahidə edirik. Eyni zamanda, dünyanın demək olar ki, gündəliyinin ön sıralarında olan ”Yaşıl gündəliyi” də təsdiq edilib və biz öz növbəmizdə işğaldan azad edilmiş əraziləri - 10 min kvadratkilometr ərazini ”yaşıl enerji” zonası elan etmişik. Artıq bir neçə su elektrik stansiyası inşa edilib, fəaliyyətdədir. Günəş və külək elektrik stansiyalarının yaradılması ilə bağlı konkret planlarımız var”.

**“Əsrin müqaviləsində bir söz, hətta bir vergül belə dəyişdirilməyib”**

**Ölkə rəhbəri vurğulayıb ki, son illər Azərbaycanda, o cümlədən energetika sahəsində aparılan islahatlar, gözəl investisiya iqlimi, ölkəmizin uğurlu inkişafı, ölkəmizdə mövcud olan sabitlik, əmin-amanlıq, təhlükəsizlik - bütün bu amillər təbii ki, hər bir investor üçün önəmli rol oynayır:** ”Azərbaycanda xarici investisiyaların qorunması da ən yüksək səviyyədədir. Xarici investorlar yaxşı bilirlər ki, bizim sözümüz imzamız qədər qiymətlidir və dəyərlidir. Bu möhtəşəm Gülüstan sarayında 1994-cü ildə imzalanmış Əsrin müqaviləsi artıq uzun illərdir ki, icra edilir və o müqavilədə bir söz, hətta bir vergül belə dəyişdirilməyib. Bütün digər müqavilələrə, böyük xarici şirkətlərlə imzalanmış müqavilələrə bizim münasibətimiz buna bənzərdir. Ona görə, Azərbaycana 10 milyardlarla dollar həcmində xarici sərmayə qoyulub. Bu sərmayə qoyuluşu davam edir”.

**“Bu stansiya Azərbaycanın enerji təhlükəsizliyinin təmin edilməsinə öz töhfəsini verəcək”**

**Ölkə rəhbəri qeyd edib ki, bu stansiya Azərbaycanın enerji təhlükəsizliyinin təmin edilməsinə öz töhfəsini verəcək:** ”Bu stansiyanın yaradılması bir daha onu göstərir ki, bərpaolunan enerji növlərinin istehsalına Azərbaycan dövləti çox böyük önəm verir. Təxminən bir il bundan əvvəl Azərbaycan Energetika Nazirliyi ilə Səudiyyə Ərəbistanının ”ACWA Power” şirkəti arasında icra müqaviləsi imzalanmışdır. Faktiki olaraq stansiyanın tikintisi ilə bağlı qərar verilmişdir və son bir il ərzində fəal iş aparılaraq bu gün artıq biz bu gözəl günü birlikdə qeyd edirik. Bu stansiya Azərbaycanda bərpaolunan enerji sektorunda ən böyük elektrik stansiyası olacaqdır. Onun istehsal gücü 240 meqavatdır və təbii ki, dediyim kimi, həm ölkəmizin enerji təhlükəsizliyinə töhfə verəcək, eyni zamanda, çoxlu iş yerlərinin yaradılmasına səbəb olacaq. Həmçinin bizim təbii qaza qənaətimiz ilə bağlı planlarımızda olan məsələlər də öz həllini tapacaq. Təbii ki, ətraf mühitə mənfi təsirin azaldılması istiqamətində bu stansiyanın çox böyük əhəmiyyəti olacaq”.

**İsmayıl**





# “Artıq evə qayıtmaq lazımdır"

## Putin: ”KTMT öz missiyasını yerinə yetirdi”

**Rusiya Prezidenti Vladimir Putin müdafiə naziri ordu generalı Sergey Şoyqunu qəbul edib.**

APA-nın TASS-a istinadən verdiyi xəbərə görə, görüşdə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının sülhməramlı kontingentinin Qazaxıstandakı missiyasının başa çatdığı elan olunub. ”KTMT-nin sülhməramlı kontingenti Qazaxıstanda vəziyyətin stabilləşməsində çox vacib rol oynayıb. Artıq evə qayıtmaq lazımdır. Biz öz missiyamızı yerinə yetirdik”, - Putin qeyd edib. Müdafiə naziri Sergey Şoyqu isə sülhməramlı kontingentin yanvarın 19-na qədər Qazaxıstandan tam çıxarılacağını, sabah Ermənistan, Tacikistan və Belarus sülhməramlılarının Rusiya təyyarələri ilə ölkəni tərk edəcəyini vurğulayıb. O, KTMT hərbçilərinin Qazaxıstanda 14 sosial əhəmiyyətli obyekti nəzarət altına aldığını da qeyd edib.

# Kiyevə hərbi yardım göstəriləcək

## ABŞ müdafiə naziri ukraynalı həmkarı ilə müzakirə aparıb




**Pentaqon rəhbəri Lloyd Ostin cümə axşamı Ukraynanın müdafiə naziri Aleksey Reznikov ilə telefonda Kiyevə hərbi yardım göstərmək üçün səyləri müzakirə edib.**

APA xəbər verir ki, bu barədə ABŞ Müdafiə Nazirliyinin sözçüsü Con Kirbinin yazılı açıqlamasında bildirilib.

”İki ölkənin müdafiə nazirləri Rusiyanın Ukrayna və onun ətrafında davam edən və səbəbsiz hərbi güclənməsini müzakirə ediblər. Nazir Ostin ABŞ-ın Ukraynanın suverenliyi və ərazi bütövlüyünə davamlı dəstəyini, o cümlədən hərbi yardım göstərmək yolu ilə Ukrayna ordusunun potensialını artırmaq üçün davamlı səylərin ediləcəyini təsdiqləyib.

Həmçinin, Ostin və Reznikov gərginliyin azaldılması üçün diplomatik səyləri dəstəklədiklərini ifadə ediblər və sıx koordinasiyanı davam etdirməyə söz veriblər”, deyə açıqlamada vurğulanıb.



Nazir: “Azərbaycanlı hərbçinin öldürülməsinə görə Ermənistan məsuliyyət daşıyır”

# Ceyhun Bayramov Amerika Yəhudi Komitəsinin icraçı direktorunu qəbul edib

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Amerika Yəhudi Komitəsinin icraçı direktoru Devid Harrisin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Bu barədə “Şərq”ə Azərbaycan Xarici İşlər Nazirliyindən bildirilib.

Nazir Ceyhun Bayramov Devid Harris ilə BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində keçirilmiş görüşə və Amerika Yəhudi Komitəsi ilə aparılmış müzakirələrə məmnunluqla istinad edib.

Tərəflər, Azərbaycan hökuməti ilə yəhudi icmaları arasında əməkdaşlığın inkişafından razılıq ifadə ediblər.

Nazir Ceyhun Bayramov qarşı tərəfə bölgədə mövcud olan cari vəziyyət, o cümlədən Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində tərəfimizdən atılan addımlar, habelə Ermənistanın davam edən hərbi təxribatları, iki gün öncə Azərbaycanlı hərbi qulluqçunun öldürülməsi və buna görə Ermənistanın məsuliyyət daşıması barədə məlumat verib.

Devid Harris görüşə və təqdim olunmuş məlumata görə təşəkkürünü bildirib. Bölgədə dayanıqlı sülh və təhlükəsizliyin təmin olunmasının vacibliyini vurğulayıb.

Görüşdə tərəflər, həmçinin Azərbaycan ABŞ münasibətlərinin inkişafı perspektivləri, qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

# Xankəndiyə qanunsuz səfərlərə şərait yaradılır

## Rus sülhməramlılarının fəaliyyəti Bakını qane etmir



“Rusiya rəhbərliyi qırmızı xətti çoxdan keçib. Əgər Azərbaycan tərəfinin etirazları nəzərə alınmazsa, alternativ tədbirlər görmək zərurət olacaq”

**”Digər qıcıq doğuran məsələ odur ki, biz görürük, Qarabağa, Xankəndiyə və Rusiya sülhməramlı qüvvələrinin nəzarətində olan digər yerlərə gələnlərin sayı gedənlərin sayı ilə böyük fərq təşkil edir”.** Bunu Prezident İlham Əliyev yanvarın 12-də yerli televiziya kanallarına müsahibəsində deyib. Dövlət başçısı qeyd edib ki, Rusiya sülhməramlıları çalışırlar giriş sərbəst olsun, çıxışda isə müəyyən problemlər yaşansın. Ölkə rəhbərinin sözlərinə görə, daha çox insan oradan gedir: ”Biz bunu izləyirik. Bir şeyi də izləyirik ki, gedən maşınların 91 faizi, - bax, 91 faiz deməklə, o cümlədən mən bildirirəm ki, biz bunu nə dərəcədə dəqiqliklə bilirik, - yoxlanılmır. Oradan çıxan maşınların cəmi 46 faizi yoxlanılmır. Yəni bu, nəyi göstərir? Onu göstərir ki, Rusiya sülhməramlı qüvvələri çalışırlar, giriş sərbəst olsun, çıxışda isə müəyyən problemlər olsun. Yəni o maşını dayandırırlar, sorğu-suala tuturlar və sair. Yəni istəyirlər ki, insanlar oradan getməsinlər. Bu isə təsadüfən ola bilməz. Bu dərəcədə fərq ola bilməz”. Prezident diqqətə çatdırıb ki, müharibə dövründə oradan çıxmış əhalinin 38 mini İkinci Qarabağ müharibəsindən sonra qayıdıb və qayıdanlardan 11 mini oranı həmişəlik tərk edib: ”Dəqiqləşdirilmiş məlumata görə, indi Rusiya sülhməramlılarının nəzarətində olan ərazidə 27 min insan yaşayır”.

**Dövlət başçısının Rusiya sülhməramlı kontingenti ilə bağlı tənqidi fikirlərini ”Şərq”ə dəyərləndirən Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı bildirib ki, ümumiyyətlə, rus qoşunları ”sülhməramlı” adı ilə torpaqlarımıza girdiyi ilk gündən etibarən cəmiyyətdə ciddi narazılıq var.** QAT rəhbərinin sözlərinə görə, onsuz da rus ”sülhməramlıların” Qarabağa soxulması xoş qarşılanmamışdı. Ancaq ötən müddət ərzində sərgilədikləri mövqe, atdıqları addımlar narazılığı daha da artırdı: ”Rusiya hərbçilərinin ən mühüm vəzifələrindən biri Laçın dəhlizində gediş-gəlişə nəzarət etməkdir. Halbuki, buvaxtadək rusların nəzarətində olan Laçın dəhlizi vasitəsi ilə Xankəndinə saysız-hesabsız qanunsuz səfərlər edilib. Xankəndinə qanunsuz səfər edənlərin hamısı orada təxribatla məşğul olub, separatçılarla görüşüblər. İctimaiyyət arasında narazılıq artmaqdadır. Ölkə başçısı Rusiya ”sülhməramlıları” ilə bağlı əhalinin ümumi əhval-ruhiyyəsini nümayiş etdirdi. Şübhəsiz, Prezident bu məsələdə ətraflı və dəqiq məlumata sahibdir. Dövlət başçısı narazılığını bu şəkildə ifadə edirsə və mətbuata danışırsa, deməli, problem həqiqətən ciddidir. Ola bilsin, rəsmi Bakı müxtəlif kanallarla Moskvaya narazılığını bildirir. Çünki Rusiya rəhbərliyi qırmızı xətti çoxdan keçib. Əgər Azərbaycan tərəfinin etirazları nəzərə alınmazsa, alternativ tədbirlər görmək zərurət olacaq”.

**İsmayıl Qocayev**

# Quterreş həyəcan təbili çaldı

## Rusiya ilə ABŞ və NATO arasındakı dialoq kritikdir



**BMT-nin Baş katibi Antonio Quterreş Rusiya Federasiyası ilə ABŞ və NATO arasındakı dialoqu kritik hesab etdiyini bildirib.**

APA-nın məlumatına görə, baş katib TASS-ın sualını cavablandırarkən müvafiq bəyanatla çıxış edib.

”Əlbəttə, hər kəs gərginliyin hazırkı eskalasiyasından narahatdır. Rusiya Federasiyası, ABŞ və NATO arasında gərginliyin azaldılması və bu və ya digər qarşıdurmanın qarşısını almaq üçün çox vacibdir”, deyə Quterreş vurğulayıb.

BMT baş katibinin fikrincə, vəziyyətin gərginləşməsi Avropa və bütün dünya üçün fəlakət olar. O bildirib ki, dialoq prosesində gərginliyi azaltmaq üçün bir yol tapmaq lazımdır.

*Xatırladaq ki, bazar ertəsi Cenevrədə təhlükəsizlik zəmanətləri ilə bağlı məsələlər üzrə Rusiya-ABŞ məsləhətləşmələri keçirilib. Çərşənbə günü Brüsseldə Rusiya-NATO Şurasının iclası, cümə axşamı isə Vyanada ATƏT-in Daimi Şurasının iclası keçirilib.*

# Ağırlaşma halları müşahidə olunmur

## Azərbaycanda omikron ştamına yoluxan şəxslərin son vəziyyəti açıqlanıb



**Koronavirusun Omikron ştamına yoluxan şəxslərin səhhətində ağırlaşma halları müşahidə olunmur.**

Bu barədə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin yaydığı birgə məlumatda deyilir.

Məlum olduğu kimi, ölkə xaricindən gələn şəxslərdən götürülmüş nümunələrdən 12-sində SARS-CoV-2 21K Omikron variantı aşkarlanıb.

Hazırda həmin şəxslərin vəziyyəti stabildir, evdə müşahidə altındadırlar. Sözügedən ştama yoluxmuş 12 nəfərin 8-indən götürülmüş təkrar test nümunələri mənfi nəticələnib və bu barədə məlumat ”e-tabib” sistemində yer alıb.

*Epidemioloji vəziyyətin nəzarətdə saxlanılması üçün virusunun genetik variantlarına dair mütəmadi analizlər aparılır.*

# Sülh prosesi ləngiyir

## Ərdoğan Ermənistana növbəti çağırışını edib



”Ermənistan sülh istiqamətində real addım atmazsa və təxribatlara davam edərsə, cavabı çox ağır olacaq”

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ankarada Avropa İttifaqının səfirləri ilə görüşündə Ermənistana çağırış edib. Ərdoğan bildirib ki, Azərbaycanın işğal altındakı torpaqlarını azad etməsindən sonra Cənubi Qafqazda yeni mərhələyə qədəm qoyulub.**

Türkiyə lideri diqqətə çatdırıb ki, prosesin ardından Türkiyə Ermənistanla münasibətlərin normallaşması prosesinə başlayıb: ”Atılan addımların gözlənilən nəticələri verməsi üçün Ermənistanın bölgədəki sülh fürsətini yaxşı dəyərləndirib Azərbaycanla pozitiv bir münasibət qurması əhəmiyyət daşıyır”.

**Ərdoğanın Qərb nümayəndələri ilə görüşdə İrəvana mesajını ”Şərq”ə dəyərləndirən millət vəkili, Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə bildirib ki, Türkiyə və Azərbaycan prezidentləri dəfələrlə Ermənistana sülh çağırışı ediblər.** Deputat bildirib ki, rəsmi Ankara və Bakı İrəvandan sülhə yönəlik real addım atılmasını gözləyir: ”Ermənistan revanşist bəyanatlara, qonşulara qarşı nifrət siyasətinə və sərhəddəki təxribatlara son verməlidir. Paşinyan hökuməti ölkədəki çox dərin sosial-iqtisadi böhranı aradan qaldırmaq istəyirsə, rəsmi Bakının tələblərinə qeyd-şərtsiz əməl etməlidir. İrəvan qonşularla normal əməkdaşlıqda maraqlı olduğunu əyani addımlarla sübuta yetirməlidir. Türkiyə prezidentinin Avropa ölkələrinin nümayəndələri qarşısında Ermənistana səslənişi önəmlidir. Ermənistan sülh istiqamətində real addım atmazsa və təxribatlara davam edərsə, cavabı çox ağır olacaq. Onu da qeyd edim ki, hazırda Azərbaycan-Türkiyə münasibətləri çox yüksəkdir. Şuşa Bəyannaməsi ilə iki ölkə rəsmi hərbi müttəfiq dövlətlərə çevrilib. Hansısa ölkə Azərbaycan, yaxud Türkiyəyə qarşı xoşagəlməz addım atarsa, birgə hərbi gücümüzlə üzləşəcək”.

**İsmayıl**

**İsmayıl Qocayev**



# Qoşunların ölkəni tərk etməsi heç nəyi dəyişməyəcək

**Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının sülhməramlı kontingentinin Qazaxıstandan çıxarılması barədə qərar qəbul olunub. Bu barədə KTMT-ya üzv ölkələrin Müdafiə Nazirlərinin Şurasının növbədənkənar iclasında birgə qərar imzalanıb.**

Qərara əsasən, kontingentin yanvarın 19-da Qazaxıstandan tam çıxarılacağı vurğulanıb. Rusiyanın Müdafiə Nazirliyi bəyan edib ki, Qazaxıstanda tapşırıqları yerinə yetirən KTMT-nin sülhməramlı qüvvələri texnika və materialları Rusiya kosmik qüvvələrinin hərbi-nəqliyyat aviasiyasının təyyarələrinə yükləmək və daimi dislokasiya məntəqələrinə qayıtmaq üçün hazırlıqlara başlayıblar. Ölkənin strateji obyektlərinin mühafizəsinin tədricən Qazaxıstanın təhlükəsizlik qüvvələrinə təhvil veriləcəyi bildirilib. Təşkilatın baş katibi Stanislav Zas da deyib ki, Qazaxıstanda keçirilən sülhməramlı əməliyyat göstərdi ki, KTMT-nin potensialı yüksək effektlidir və həqiqətən də səmərəlidir. O, Qazaxıstanda xüsusilə fərqlənmiş sülhməramlıların mükafatlandırılacağını da qeyd edib. Xatırladaq ki, Qazaxıstanda başlayan etiraz aksiyaları ilə əlaqədar prezident Kasım-Jomart Tokayev quruma müraciət edərək dəstək istəmişdi. Sülhməramlı qüvvələrinin tərkibinə Rusiya, Belarus, Qırğızıstan, Tacikistan və Ermənistan silahlı qüvvələrinin bölmələri daxildir.

“KTMT rəsmən getsə də, qalsa da, Kremlin dirijor çubuğu Qazaxıstanın üzərindədir”

**Rus qoşunlarının Qazaxıstandan çıxma prosesini ”Şərq”ə təhlil edən siyasi şərhçi Azər Niftiyev deyib ki, uzun müddətdir Qərblə Rusiya arasında gərgin münasibətlər hökm sürür. Analitik bildirib ki, 2014-cü ildən bu yana tərəflərin münasibətləri daha xaotik xarakter alıb:** ”Rusiya özü üçün təhlükəsizlik təminatı almağa çalışır. NATO isə heç bir ölkəyə qapılarını bağlamayacağını bəyan edir. Rusiyanın təhlükəsizlik təminatı almağa çalışdığı önəmli bölgələrdən biri postsovet məkanıdır. Moskva hər vəchlə çalışır ki, hərbi alyansın postsovet ölkələrinə inteqrasiya etməsinin qarşısını alsın. Rusiyanın Ukrayna sərhədlərinə ordu yığması Qərb tərəfindən ciddi tənqid olunurdu. 2021-ci ilin sonunda ABŞ Prezidenti Co Bayden elan etmişdi ki, 2022-ci il ”demokratiya ili” olacaq. İlin əvvəlində Qazaxıstanda məlum olaylar başladı. İlkin mərhələdə Qazaxıstandakı etiraz askiyalarına Qərb diplomatik yollarla dəstək verirdi. Lakin prosesin ikinci hissəsi bilavasitə Rusiyanın iştirakı ilə reallaşdı. Hökumətin istefası, Nazarbayevin kənarlaşdırılması proseslərin nəzarətdən çıxmasına gətirib çıxardı. Kreml yaxşı başa düşürdü ki, Qazaxıstanda əsası qoyulan proses digər postsovet ölkələrinə, yekunda Rusiyanın özünə də sirayət edə bilər. Ona görə də olaylara sərt müdaxilə etdi. Tokayevin KTMT-ni ölkəyə dəvət etməsi də bundan qaynaqlanırdı. Belarus Prezidenti A.Lukaşenkonun Özbəkistanı hədələməsi də prosesin tərkib hissəsi idi”.

**A.Niftiyev KTMT-nin Qazaxıstandan çıxması prosesinə fərqli yanaşdığını deyib**: ”Elan etdilər ki, sülhməramlı kontingent artıq ölkədən çıxmağa başlayıb. Bir müddət sonra bəyan edəcəklər ki, Qazaxıstanda KTMT-nin bir hərbçisi belə qalmayıb. Aydınlaşdırmaq necə mümkün olacaq ki, ruslar həqiqətən ölkəni tərk edib, yoxsa gizli şəkildə qalıblar. Bu artıq formal prosesdir. KTMT rəsmən getsə də, qalsa da, Kremlin dirijor çubuğu Qazaxıstanın üzərindədir. Sülhməramlı kontingentin çıxması heç nəyi dəyişməyəcək”.



# "Manata hər hansı ciddi təzyiq yoxdur"

**Fuad İbrahimov:** “Cənab prezident də çıxışında xüsusi qeyd etdi ki, bizdə idxal və ixrac arasında müsbət saldo var”

**Prezident İlham Əliyev yanvarın 12-də yerli televiziya kanallarına müsahibə verib. Müsahibədə bir çox məqamlarla yanaşı, ölkə başçısı respublikamızdakı iqtisadi vəziyyətə diqqət çəkib. Azərbaycan lideri qarşıya qoyulan məqsədlərin həyata keçirildiyini bildirib:**

”İqtisadi artım 5 faizdən çoxdur. Bu, çox gözəl göstəricidir, xüsusilə müharibədən çıxmış ölkə üçün. Ən sevindirici hal odur ki, qeyri-neft sektorunda iqtisadiyyatımız 7,2 faiz artıb. Bu onu göstərir ki, qeyri-neft sektorunun inkişafı ilə bağlı bizim bütün planlarımız həyatda öz əksini tapır. Sənaye istehsalına gəldikdə, həm ümumi sənaye istehsalımız 5 faizdən çox artıb, həm də qeyri-neft sənayemiz 20 faizə yaxın artıb. Hesab edirəm ki, bu, dünya miqyasında bəlkə də ən yüksək göstəricidir.

Çünki biz neft amilini kənara qoysaq, real iqtisadi və sənaye artımı məhz bu rəqəmdə özünü əks etdirir. Bizim valyuta ehtiyatlarımız artıb, baxmayaraq ki, keçən il böyük xərclərimiz olub. Xüsusilə Qarabağ və Şərqi Zəngəzur bölgələrində və ölkəmizin digər yerlərində investisiya proqramı tam icra edilib. Buna baxmayaraq, valyuta ehtiyatlarımız 2,5 milyard dollar artıb. Bildiyiniz kimi, mənim hökumətə ümumi göstərişim ondan ibarət idi ki, biz valyuta ehtiyatlarının azalmasına imkan verməməliyik. Əgər lazım olarsa, xərcləri, xüsusilə investisiya xərclərini bir qədər azaldıb, amma valyuta ehtiyatlarımızı sabit saxlamalıyıq və çalışmalıyıq ki, artıraq. Çünki bu, bizə iqtisadi müstəqillik verir və iqtisadi müstəqillik olmadan, siyasi müstəqillikdən danışmaq mümkün deyil”.

*Prezident qeyd edib:* ”Azərbaycanda biz elə siyasət aparırıq ki, sosial sahə daim diqqət mərkəzində olsun və köklü iqtisadi islahatlar insanların güzəranına mənfi təsir göstərməsin. Düzdür, istisnalar olub. Bildiyiniz kimi, bir neçə il bundan əvvəl biz çox ağır bir addımın atılmasına məcbur idik. Manatın qiymətdən düşməsi insanların rifah halına mənfi təsir göstərmişdi. Amma o addımı biz mütləq atmalı idik. Çünki əgər biz o addımı atmasaydıq, bütün valyuta ehtiyatlarımızı xərcləyə bilərdik. Onsuz da bu addımın gecikməsi ona gətirib çıxardı ki, Mərkəzi Bankın valyuta ehtiyatları böyük dərəcədə tükənmişdi. Təqribən 10 milyard dollar vəsait manatın sabit saxlanmasına istifadə edilmişdi. Nəticə etibarilə Mərkəzi Bank manatı sabit saxlaya bilmədi və biz 10 milyard dollar valyutanı itirdik”.

**İqtisadçı-ekspert Fuad İbrahimov prezidentin toxunduğu iqtisadi göstəricilərə toxunaraq ”Şərq”ə deyib ki, çətin vəziyyətlərə rəğmən iqtisadiyyatımız inkişaf etdi:** ”Cənab prezident tərəfindən verilən göstəricilər bir daha sübut etdi ki, tək müharibədən çıxmış ölkə kimi yox, eyni zamanda da post-pandemiyadakı vəziyyəti əlavə etsək, göstəricilərimiz əlverişli və pozitivdir. Digər ölkələrdən fərqli olaraq həm epidemiya, həm də müharibə şəraitini birgə yaşadıq. Belə çətin situasiyada Azərbaycan iqtisadiyyatı 5 faiz artdı”.

***Ekspert prezidentin qeyri-neft sektoru və sənayeləşmə istiqamətindəki nəticələrimizi də düzgün vurğuladığını söylədi:***

”Nəzərə almaq lazımdır ki, respublikamızın bütün regionlarında sənaye müəssisələrin yaranması, fəaliyyət göstərməsi nəticəsində istehsal olunan məhsulların artıq ixraca yönləndirilməsi, paralel olaraq bu məhsulların yerli bazarda iqtisadi dövriyyəyə cəlb edilməsi statistik göstəricilər olaraq məntiqi cəhətdən inkişafın göstəricisidir. Azad olunmuş torpaqlarda da aktiv olaraq iqtisadi ünsürləri iqtisadi dövriyyəyə cəlb edirik”.

*İqtisadçı valyuta məsələsinə də toxunub:* ”2021-ci ilə baxanda 2022-ci ilə daha sürətli inkişafla qədəm qoymuşuq. Xüsusi olaraq, valyuta ehtiyatlarımızın dayanıqlı şəkildə qalması, iqtisadiyyatımızda mühüm rol oynayan neftin qiymətinin də dünya bazarında dözümlü bir dəhlizə daxil olması ona dəlalətdir ki, bu il iqtisadiyyatımız dinamik şəkildə inkişaf edəcək”.

***F.İbrahimov devalvasiya ilə bağlı öz fikirlərini ifadə edib:*** ”Manatın məzənnəsini şərtləndirən amillər mövcuddur. Bunların içində ölkənin tədiyyə balansı var. Bu, idxal və ixrac arasında olan göstəricilərdir. Cənab prezident də çıxışında xüsusi qeyd etdi ki, bizdə idxal və ixrac arasında müsbət saldo var. Bu halda, manata hər hansısa ciddi təzyiq yoxdur. Yəni bu günləri manatın məzənnəsinin sabit qalmasına uyğun mühit formalaşıb”.

**Cəmilə Əzim**

# Həmsədrlərin işi çoxdan bitib

## Əgər yeni missiya ilə dönmək istəyirlərsə sülhə dəstək verməlidirlər

**İsmayıl Qocayev**



**Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində yenidən ATƏT-in Minsk qrupundan danışıb. Dövlət başçısı növbəti dəfə bəyan edib ki, vasitəçilər ”Dağlıq Qarabağ münaqişəsi” ilə məşğul ola bilməzlər, çünki bu münaqişə artıq həll olunub:**

”Onların görünməməsinin səbəbi də hesab edirəm ki, bundan qaynaqlanır. Çünki onlar üçün nə qədər çətin olsa da, bu yeni reallığı qəbul etməlidirlər. Bilməlidirlər ki, onlar bundan sonra Qarabağ məsələsi ilə məşğul olmayacaqlar. Çünki buna biz imkan verməyəcəyik”. Ölkə rəhbəri qeyd edib ki, əgər münaqişə həll olunubsa, deməli, burada vasitəçiliyə yer qalmır: ”Nə ilə məşğul olacaqlar, yəqin ki, özləri fikirləşməlidirlər. Bildiyimə görə, indi həmsədrlər arasında da əvvəlki dövrlərdəki kimi birlik yoxdur. Minsk qrupu 1992-ci ildə yaradılıb və bu il 30 illiyidir. Yəqin ki, bu tədbirlərin hazırlanması onları məşğul edir. Amma əgər bu zarafatları kənara qoysaq, hesab edirəm ki, onlar özləri üçün bir gündəlik formalaşdırmalıdırlar. Prinsipcə, 30 il böyük iş stajıdır, pensiya ərəfəsindədirlər. Ona görə onlara uzun ömür, cansağlığı arzulayıram”. Dövlət başçısı diqqətə çatdırıb ki, prosesi tamamilə inhisarlaşdırmaq, təkcə başqa aktorları deyil, Minsk qrupunun öz üzvlərini də kənarlaşdırmaq cəhdi onların, sadəcə, statistlər rolunda qalmasına səbəb olur: ”Çoxları hətta bu qrupun kimlərdən ibarət olmasını bilmir. Ardıcıllıq belə olmalıdır. Birincisi, bu qrupun nə dərəcədə həyat qabiliyyətli olması aydınlaşdırılmalıdır. İkincisi, onlar nə ilə məşğul olmağı planlaşdırdıqlarını əks etdirən gündəlik təqdim etməlidir. Daha sonra Azərbaycan və erməni tərəfi buna öz münasibətini bildirməlidir”.

**Prezidentin Minsk qrupu ilə bağlı iradlarını ”Şərq”ə dəyərləndirən politoloq Məhəmməd Əsədullazadə deyib ki, ölkə rəhbəri budəfəki çıxışı ilə həmsədr söz-söhbətinə birdəfəlik nöqtə qoydu. Ekspertin qənaətincə, vasitəçilik missiyasını uğursuzluqla sonlandırmış bir instituta ciddi məsələləri həvalə etmək olmaz:** ”Dövlət başçısının da dediyi kimi Minsk qrupunun həmsədrləri bundan sonra görə biləcəkləri işlərlə bağlı konkret gündəlik təqdim etməlidirlər. Əgər Azərbaycan-Ermənistan arasında yekun sülh prosesində, humanitar məsələlərdə, tərəflər arasında etimad mühitinin formalaşmasında iştirak etmək istəyirlərsə, bunu açıq şəkildə bəyan etməlidirlər. Ancaq Minsk qrupu hələ də israrla başa çatmış missiyasını davam etdirməyə çalışır. Verdikləri bəyanatlarda siyasi məqamlara təmas edir, həll olunmuş münaqişənin tənzimlənməsindən danışırlar. Görünən odur ki, indiki şəraitdə həmsədrlər təmsil etdikləri dövlətlərin maraqlarına uyğun davranış sərgiləyirlər. Təbii ki, belə münasibət rəsmi Bakını qətiyyən qane etmir. O səbəbdən həmsədrlərə münasibət bir qədər də sərtləşir”.

# REAL çalışır ki, parlamentdə daha bir mandat qazansın

**Natiq Cəfərli:** “İctimai xadimlərin, jurnalistlərin seçkini gözdən saldığını görəndə adam pis olur”



**Bu günlərdə REAL Partiyasının sədri İlqar Məmmədov Prezident Administrasiyasının Siyasi partiyalarla və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevlə görüşüb. Görüşdə ölkə gündəmində olan bir sıra məsələlərə toxunulub.**

Media haqqında qəbul olunmuş yeni qanun layihəsi, QHT qanunvericiliyə əlavə və dəyişikliklər haqqında REAL Partiyasının Milli Məclisə təqdim etdiyi paket, siyasi partiyalar haqqında yeni qanunun qəbulu perspektivləri, əlavə və təkrar parlament seçkilərinin keçirilməsi məsələləri müzakirə edilib. Dialoqdan sonra sosial şəbəkələrdə görüş barəsində müxtəlif fikirlər irəli sürülüb. Jurnalist, siyasi şərhçi Aqşin Kərimov feysbuk hesabında məsələyə münasibət bildirib: ”Hazırda Milli Məclisdə 5 deputat yeri boşdur. Eldəniz Səlimovun mandatına xitam verilsə, 6 olacaq. Həmin yerlərin doldurulması üçün təkrar parlament seçkilərinin keçirilməsi gözlənilir. Düşünürəm ki, REAL Partiyasına daha bir yer ”verilməsi” üçün müzakirələr gedir. REAL sədri İlqar Məmmədov bu yaxınlarda Prezident Administrasiyasında görüş keçirib və müzakirə mövzularından biri təkrar seçkilər olub. REAL çalışır ki, daha bir mandat yeri qazansın. Parlamentdə 2 yer qazansa, (hazırda birdir) bu, REAL-a dövlət büdcəsindən ayrılan məbləğin həcmini də artıracaq”.

**REAL Partiyasının sədr müavini Natiq Cəfərli isə ”Şərq”ə açıqlamasında A.Kərimovun iddialarına cavab verib:** ”Fərziyyələr söyləyirlər. Hamı da elə düşünür. Deputat mandatı verilmir, ora seçkilər keçirilir və millət vəkili seçilir. Seçkiləri gözdən salırlar. Digər tərəfdən ictimai xadimlərin, jurnalistlərin seçkini gözdən saldığını görəndə adam pis olur. Hər kəs seçki institutuna hörmət qazandırmağa çalışmalıdır. Belə xəbərlər zatən gözdən düşən seçki institutunu yenidən gözdən salır”.

**Aygün Tahir**

# Azərbaycan doğru mövqe sərgiləyir

## Ermənistan tərəfinin KTMT arzuları xülyadır



**Fərəc Quliyev:** “Rusiya sülhməramlıları ola bilsin, vaxtından tez torpaqlarımızı tərk edəcək”

**Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində Ermənistanın sərhəddə törətdiyi təxribatlardan danışıb. Dövlət başçısı bildirib ki, Ermənistanda revanşist meyillər təkcə keçmiş yox, indiki hakimiyyət nümayəndələri tərəfindən də özünü büruzə verir. Ölkə rəhbəri xatırladıb ki, müharibədən sonrakı dövr ərzində hərbi təxribatlara dəfələrlə cəhd edilib:**

”Ona görə də heç vaxt indiki erməni hakimiyyətinin xoş sözlərinə aldanmamalıyıq. Unutmamalıyıq ki, biz hansı ölkə ilə qonşuluqda yaşayırıq”.

Prezident sərhəddə törədilmiş təxribatların haradan qaynaqlandığını da diqqətə çatdırıb. Vurğulayıb ki, ermənilər bizi yenə də sınağa çəkmək istəyirlər: ”Ola bilsin, dünənki təxribatın mənşəyi də son vaxtlar MDB məkanında baş vermiş hadisələrdir və hesab edirlər ki, bunların imkanları artıb, yaxud da haradansa dəstək ala bilərlər. Amma unutmamalıdırlar ki, İkinci Qarabağ müharibəsindəki kimi, kimin onlara yardım edəcəyindən asılı olmayaraq, biz istədiyimizə nail olacağıq və heç kim, heç nə bizi dayandıra bilməz. Bizi dayandıran sadəcə odur ki, üçüncü müharibə istəmirik, bu, bizim planlarımızda yoxdur. Biz istəyirik ki, müharibə dövrü başa çatsın, istəyirik ki, normal əlaqələr yaradılsın, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü, nəhayət, tanısın. Amma əgər görsək ki, dediyim kimi, bizim üçün təhlükə var, o təhlükə elə yerindəcə məhv ediləcək”.

Xatırladaq ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının ”sülhməramlı” kontingentinin Qazaxıstana girməsi Ermənistan rəhbərliyinin ”ruhlanması”na səbəb olub. ”KTMT İrəvana da yardım edə bilər” düşüncəsinə qapılan ermənilər hadisələri gərginləşdirmək üçün sərhəddə təxribat törədiblər.

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, keçmiş millət vəkili Fərəc Quliyev ”Şərq”ə açıqlamasında deyib ki, Prezident İlham Əliyev müsahibəsində mühüm məqamlara toxundu. Partiya rəhbərinin sözlərinə görə, belə müsahibələr və ölkə rəhbəri tərəfindən verilən mesajlar çox önəmlidir:** ”Qazaxıstanda baş verən hadisələrdən anti-türkçülər, iranbaş və rusbaşlar yersiz olaraq sevinirdilər. Açıqlamalarımda deyirdim ki, dəyişən heç nə yoxdur və Türk Dövlətləri Təşkilatı güclənməkdə davam edir. Qazaxıstanda epizodik hadisə yaşandı. Təbii ki, arzuolunmaz proseslər idi, çünki soydaşlarımız həlak oldu, ölkədə qarışıqlıq yarandı. Ancaq tarixin təkərini geri döndərmək mümkün deyil. Hər zamankı kimi Qazaxıstan olaylarından da ruhlanan bəzi türk düşmənləri müəyyən tədbirlərə əl atdılar. Ölkə prezidenti açıq mətnlə öz mövqeyini ortaya qoydu. Burada iki məsələ çox mühümdür. Birincisi odur ki, mövcud şərtlərdə hansısa dəyişiklik yoxdur. İqtisadiyyatda, elə siyasətdə də meqalayihələrimiz gündəmdədir. İradəmiz ortadadır. Dövlət başçısı yeni düzənlə bağlı danışarkən bildirdi ki, Azərbaycan proseslərdə şəraiti diktə edən tərəfə çevrilib. Təbii ki, Türkiyə ilə birlikdə buna nail olmuşuq. Əgər Ermənistanın zənn etdiyi kimi mövcud şərtlərdə dəyişiklik olsaydı, ermənilərin mövqeyi güclənsəydi belə yenə də düşmənin təxribatları nəticəsiz qalacaqdı. Bütün hallarda erməniləri əzəcəkdik. Arxalarında kimin olmasından asılı olmayaraq, təxribatçı ermənilər məhv ediləcəkdi. Bizi heç kim dayanadıra bilməzdi”.

**F.Quliyev vurğulayıb ki, Ermənistan Qazaxıstandakı hadisələrdən sonra KTMT-nin keçici dönəm sədri kimi analogiya apardı və düşündü ki, günün birində hərbi blokdan Azərbaycana qarşı da istifadə etmək mümkün olar:** ”Müharibə dönəmində də erməni tərəfinin cəhdləri çox olmuşdu. Əlbəttə, bunların hamısı xülyadır. KTMT artıq Qazaxıstandan çıxmağa başlayıb. Azərbaycandakı Rusiya sülhməramlıları da vaxtında, hətta ola bilsin, vaxtından tez torpaqlarımızı tərk edəcək. Azərbaycan dövlətinin vizyonu çox doğrudur, kursumuz sabitdir. Qarşımızda duranlardan fərqli olaraq mövqeyimizdə dəyişiklik yoxdur. Şahmat termini ilə desək, ”artıq qaralarla oynamırıq” və oyunu biz qururuq. Xatırlayırsızsa, dövlət başçısı sərhəd bölgəsində də bəyanat vermişdi ki, ”Azərbaycan Ordusu qeyri-bərabər döyüşlərə də hazırdır”. Müttəfiqlərimiz, ələlxüsus da qardaş Türkiyə ilə Azərbaycan tandem haqlı və güclüdür. İndi haqlı olmaq üçün güclü olmaq şərtdir. Biz həm haqlı, həm də güclüyük. Qarşımızda nə Ermənistan, nə də onların güvəndiyi havadarları dayana bilməz”.

**İsmayıl Qocayev**

# “Bu, məmurlara xəbərdarlıqdır"

## Rəşad Məcid: “İlham Əliyev həmişə mediaya önəm verib”



**Prezident İlham Əliyev yanvarın 12-də yerli televiziya kanallarına müsahibə verib. İ.Əliyev 2021-ci ildə iqtisadi, sosial sahələrdə görülən işlərə, Azərbaycanla Ermənistan arasındakı münasibətlərə, işğaldan azad edilmiş ərazilərdə aparılan yenidənqurma işlərinə, ölkəmizin xarici siyasətinə və digər məsələlər barəsində danışıb.**

Müsahibədə ölkə lideri ictimai nəzarət baxımından medianın böyük rolu olduğunu vurğulayıb. O qeyd edib ki, bəzən xoşagəlməz hallar haqqında mediadan məlumat öyrənir və buna dərhal reaksiya verilir. İlham Əliyev dövlət məmurlarının işinə təkcə Prezident Administrasiyası yox, həm ictimaiyyət, həm də media nümayəndələrinin nəzarət etdiyini məmurlara bir daha xatırladıb.

**Prezidentin medianın rolundan bəhs etməsi ilə bağlı ”Şərq”ə danışan ”525-ci qəzet”in baş redaktoru Rəşad Məcid bildirib ki, media ilə bağlı söylənilən fikirlərdə özbaşınalıq edənlərə xəbərdarlıq edilir:**

”Azərbaycan Prezidenti İlham Əliyev həmişə mediaya önəm verdiyini bildirib. Ölkə başçısının müsahibəsində mətbuatın rolundan bəhs etməsi müstəqil medianın ölkə üçün nə qədər əvəzsiz olduğunu bir daha göstərir.

Yerli televiziyalara prezidentin müsahibə verməsi çox müsbət haldır. Prezidentin media ilə bağlı söylədiyi fikirlər, xüsusilə medianın ictimai nəzarət funksiyasını qeyd etməsi məmurlara xəbərdarlıqdır. Bu, tənqidləri qulaqardına vuranlar üçün siqnaldır”.

**Xanlar ƏLİBƏY**

# Almaniyadan "Teleqram"a ciddi xəbərdarlıq edilib

## Sosial şəbəkə platformasında ölüm və nifrət halları yayılır




**Almaniyanın Daxili işlər naziri Nansi Faeser, ”Telegram” mesajlaşma proqramının Almaniya qanunlarına uyğun gəlmədiyi təqdirdə son çarə olaraq bağlana biləcəyini söyləyib.**

”Şərq” xarici mediaya istinadən xəbər verir ki, nazir Nensi Faeser ”Teleqram”ı nifrət nitqlərinin yayıldığı platforma kimi göstərib. O deyib ki, ”Telegram”ın mesajlaşma proqramı ilə bağlı qiymətləndirmələr aparılıb:

”Fevralın 1-dən etibarən sosial şəbəkələr nəinki nifrət nitqi və ölüm təhdidlərini silməli olacaq, həm də bu barədə Federal Cinayət Agentliyinə məlumat verəcək”.

Feaser, məsələnin Avropa səviyyəsində həll edilməli olduğunu vurğulayıb: ”Çünki bunu tək etmək şansımız yoxdur. Teleqramın mərkəzi bu gün Dubayda, sabah Kayman adalarında ola bilər. Qanunu tətbiq etmək üçün daha çox gücə ehtiyacımız olacaq. Almaniya dövləti bunu təkbaşına edə bilməz”.

**Çimnaz Şahlar**



# "Rusiya çürüyür, Qazaxıstandan da, Qarabağdan da çıxacaq"

## Zərdüşt Əlizadə: “2500 əsgər gəlib Qazaxıstanı işğal etdi? Bu, mümkün deyil axı”

**Azərbaycan Sosial Demokrat Partiyasının qurucusu və ilk sədri, politoloq Zərdüşt Əlizadənin ”Şərq”ə müsahibəsini təqdim edirik.**

**- Qazaxıstanda baş verən hadisələrin real səbəbləri nə idi?**

- Bu ölkədə qazın qiymətinin qalxması bir qığılcım rolunu oynadı. Əhali hakimiyyətin yürütdüyü siyasətdən o qədər narazı idi ki, kütlələşmə, əhalinin əksər hissəsinin yoxsullaşması, hakim zümrənin dəbdəbəli həyatı, milli sərvətlərin talanması, xaricilərə satılması, insan haqlarının pozulması, bütün bunlar aktiv zəmin yaradırdı ki, hansısa bir ictimai partlayış olsun. Qazın qiymətinin qalxması bir qığılcım oldu ki, nəticədə partlayış baş verdi. Qazaxıstanda hakimiyyətlə xalq arasındakı mükalimə mexanizmlərinin hamısı məhv edilmişdi. Siyasi partiyalar sıradan çıxarılmışdı. Parlamenti siyahılarla formalışdırmışdılar. Azad mətbuat yox idi, vətəndaş cəmiyyəti basqı altında idi. Əks-əlaqə itmişdi. Hakimiyyət elə bilirdi ki, hər şey əladır. Xalq isə buna etiraz edirdi. Nəticədə etirazlar başladı və sonradan proseslər küçədə gözü qızmış insanların talançılığı ilə müşayiət olundu. O zaman ki, siyasi-mədəni mükaliмə imkanları olmur, onda kütlə işə düşür və barbar hərəkətlər etməyə başlayır. Qazaxıstanda bu baş verdi. Bu vəziyyət bütün avtoritar ölkələr üçün qaçılmazdır.

**- Qazaxıstan olaylarını 20 yanvar hadisələri ilə eyniləşdirirlər. Sizcə, bu analogiya doğrudurmu?**

- 20 yanvar hadisəsi KQB-nin hərəkata yerləşdirdiyi agentlərin əli ilə törədilən bir təxribat idi. Hərəkatı məhv etmək, xalqı boğmaq üçün törədilmişdi. 20 yanvarda nə baş verdi? Bakıya sovet qoşunu yeridildi və camaatı buna qarşı qaldırdılar. Sovet qoşunları Bakıya yerləşdiriləndə Azərbaycan müstəqil olacaqdı? Əlbəttə, xeyr! Bakıda 4-cü ordunun komandanlığı yerləşirdi. Niyyət demokratik hərəkatı boğmaq, xalqı qorxutmaq idi. Bakıda camaatı qaldırmışdılar. Bu, qanuni idi? Paytaxtımızda əvvəldən 11 min 200 nəfər sovet qoşunu yeridilmişdi. Hava Qüvvələri Diviziyasının qərargahı yerləşdirilmişdi. Hərb işindən, siyasətdən başı çıxmayan dayaz adamlar ağızlarına gələni danışırlar. Camaat da buna inanır. 20 yanvar xalqımıza qarşı bir təxribat idi. Bu təxribatı Sovet Təhlükəsizlik Komitəsi hərəkata salınmış casusların əli ilə həyata keçirdi. Sonradan hərəkata yerləşdirilmiş casusların adları açıqlanmadı.

**- Onların ifşası üçün hansısa addımlar atdınızmı?**

- Bəli, bu barədə yazdım da, danışdım da. Həmin casuslar zərbə altından çıxarıldı və adları gizlədildi. Arxivlərin açılmasını tələb etdim, açmadılar. Mənə dedilər ki, bunun başına hava gəlib. Qazaxıstanda da buna bənzər hadisələr baş verdi. Qazaxıstanda zəmin nə idisə, Azərbaycanda da o idi. Əhali hakimiyyətdən narazı idi. Bu narazılıqlar axırda gəldi 20 yanvarda qırğınla nəticələndi. Seçkiləri sentyabr ayına saxladılar. O vaxt müxalifət 60-70 faiz səs toplamaq əvəzinə, 25 faiz səslə kifayətləndi. Bu idi mahiyyət. Hakimiyyət uğrunda dava gedirdi. Hakimiyyətin yuxarı eşalonunda çat var idi. Qazaxıstanda da elə idi. Nazarbayevlə Tokayev klanı arasında mübarizə gedirdi. Bizdə də Vəzirova qarşı partokratlar Xalq Cəbhəsindən istifadə edib mübarizə aparırdı, özləri isə rahat oturmuşdular.

**- Belə çıxır, əhalini qırğına Xalq Cəbhəsi verib. Axı Xalq Cəbhəsi daim qırğının əleyhinə olub. Hətta ölkədə qırğın olmasın deyə sabiq prezident Əbülfəz Elçibəy vəzifəsindən getdi. Bu necə ola bilər axı?**

- 1989-cu ildə Xalq Cəbhəsi idarə heyətində üç dəfə məruzə etmişəm ki, xalqı orduya qarşı qoymayın. Ordu gəlib xalqı məhv edəcək. Pənahlar, İsalar, Nemətlər, Etibarlar mənə gülüblər. Pənah onda mənə gülürdü. Axırda sual verdim ki, siz orduda qulluq etmisiniz? Məlum oldu ki, 13 nəfər kişi arasında məndən başqa orduda xidmət edən olmayıb. Onlar ordu nədir bilmirlər. Axırda onlara dedim ki, sizin yanınızda qala bilmərəm, siz xalqı qırğına aparırsınız. Yanvarın 7-si Xalq Cəbhəsinin idarə heyətinin üzvlüyündən çıxdım. AXC-ni mən yaratmışdım. Amma çıxdım oradan. 13 gündən sonra ordu gəldi xalqı qırdı. 137 nəfər öldürdülər. Orduya atın demişdilər, ordu da atdı. 11 min hərbçi Bakıda oturmuşdu. Üstəlik, 20 min də gəldi. Camaatı küçəyə çıxarıb qırdırdılar, özləri də evlərində gizləndilər. Yazıq camaatın xəbəri yox idi ki, ordu gələcək. Xalqa demişdilər, çıx, onlar da çıxmışdı.

**- Qayıdaq Qazaxıstana ... İddialar var ki, Qazaxıstanda baş verən aksiyaların sonrakı mərhələdə iğtişaş və ya təxribat müstəvisinə keçməsində və ya keçirilməsində Rusiyanın ”əli” olub...**

- İstənilən inqilabi hərəkatda həmişə talançılar, qarətçilər olur. İstər Fransa, istər İngiltərə, Niderland, istərsə də Oktyabr inqilablarında qarətlər baş verirdi. Varlıların evlərinə soxulub onları qarət edirdilər. Bu, həmişə olub. Bunlar çevrilişlərdə, inqilablarda qaçılmaz hadisələrdir. Ona görə ki, hakimiyyət cəmiyyətlə mükaliməni yox etmişdi. Aşağılar fəryad edirdi, yuxarılar eşitmirdi. Eşitməyəndə də belə hadisələr yaşanır. Qazaxıstanda Nursultanın ailəsinin hədsiz acgözlüyü qazax xalqını bu vəziyyətə saldı. Əlbəttə ki, Rusiyanın burada təsiri var idi. Bununla yanaşı Amerika və Çinin də təsirləri olmamış deyil. İndi dünya qloballaşıb. Böyük dövlətlər heç nəyə təsirsiz qala bilməzlər. Onlar iqtisadi sahədə əməkdaşlıq etsələr belə, bilavasitə təsir və ya təzyiq edirlər. Qazaxıstana gəlincə, deyim ki, Rusiya ilə Qazaxıstan 200 il bir məkanda olublar. Azərbaycan da Rusiya ilə 200 il bir məkanda olub. Azərbaycan, Ukrayna, Gürcüstan, Ermənistan və Qazaxıstanda Rusiyanın təsirləri var. Bu danılmazdır və onu birdən-birə yox etmək də mümkün deyil. Necə ki Fransa və İngiltərə keçmiş müstəmləkələrinə təsir göstərir, Rusiya da öz keçmiş müstəmləkələrinə təzyiqlər edir. Amma Qazaxıstandakı olayları Rusiya kəşfiyyatına bağlamaq doğru deyil. Bəli, Rusiya bu vəziyyətdən istifadə etdi.

**- Yaxşı, nə qazandı?**

- KTMT qüvvələri gəldi, indi də çıxacaq. Bu bir təsəvvür yaratdı ki, KTMT üzv ölkələr daxilində sabitliyi qorumağa qadirdir. Amma bəzən bizimkilər şişirdirlər. Təcavüz, işğal, imperiya bərpa olunur kimi iddialar ortaya atırlar. Bunlar savadsız fikirlərdir. Tarixi anlamayanlar, kitab oxumamışlar, cahil adamlar oturub əmmaməliklə məşğul olurlar.

**- Çoxsaylı nidalı sullar var ki, niyə Tokayev türk dövlətlərindən deyil, Rusiyadan ”mədət umdu?”**

- Türk Dövlətləri Birliyi təzə yaradılmış təşkilatdır. Onun hərbi əməliyyat həyata keçirmək üçün işlək mexanizmi varmı? Yoxdur! Olmayan bir amilə kim və necə müraciət edə bilər? Türk dövlətlərinin nizamnaməsi bəllidir. Orada əməliyyatlarla bağlı qərar yoxdur. Amma KTMT-də var. Qazaxıstan NATO-ya müraciət etməli idi? Çinə müraciət etməli idi? Çinə müraciət etsəydi, rəsmi Pekin deyəcəkdi ki, mən bu işlərlə məşğul olmuram. Mən Qazaxıstana yatırım etmişəm, onu çıxarıram. Ordan neft alıram. Çin bunu deyə bilərdi. Hər işlə bağlı aidiyyəti qurumlar var. Tokayev KTMT-yə müraciət etdi, o da gəldi. Sonra dedi ki, çıx. O da dedi ki, çıxaram. Məsələ bitdi. Bəzi şəxslər o qədər qərəzlidilər ki, nə dediklərini özləri də anlamırlar. İddia edirlər ki, Rusiya Qazaxıstanı işğal etdi. Qazaxıstanı necə işğal etdilər? 2500 əsgər gəlib Qazaxıstanı işğal etdi? Bu, mümkün deyil axı.

**- Yeri gəlmişkən deyim, İkinci Qarabağ savaşından sonra Qarabağa müvəqqəti olaraq Rusiya sülməramlıları yerləşdiriləndə də həmin iddia ortaya atıldı ki, Rusiya Qarabağı yenidən işğal etdi...**

- Qarabağda 3000-ə yaxın rus yerləşdirilib. İndi iddia edirlər ki, Azərbaycanı ruslar işğal edib. Həmin 3 min rus 50 minlik Azərbaycan Ordusunun ”qucağı”nda oturub. Necə işğal edə bilərlər? Azərbaycan hökumətinin razılığı ilə gəliblər ki, təhlükəsizliyi təmin etsinlər. Biz ermənilərlə barışsaq, ruslar sabah çıxıb gedəcəklər. Rusların getməsi üçün bizə bir şey lazımdır: ermənilərlə barışmaq. Dünya görsün ki, biz ermənilərlə barışmışıq.

*“Necə ola bilər ki, belə bir ölkə birdən-birə dirçəlsin və SSRİ-ni bərpa etsin”*

**- Biz ermənilərlə barışmaq istəyirik. Hətta barışıq əli də uzadırıq. Lakin Ermənistan hələ ki əlimizi havada qoyur. Hətta dünən Kəlbəcərdə təxribat törətdilər, bir əsgərimiz şəhid oldu...**

- O təxribatı ermənilər etməyib. Onu ruslar törədiblər. Ermənilər onların qapazaltısıdır. Erməni ordusuna da ruslar nəzarət edir.

**- Rusiya nəyə görə edib?**

- Rus əsgərləri torpaqlarımızda uzun müddət qala bilsinlər deyə. Sadə gedişlərdir, bunu anlamaq üçün alim olmaq lazım deyil.

**- Doğrudanmı 3 il yarımdan sonra ruslar Qarabağdan çıxacaqlar?**

- Azərbaycanın keçmiş xarici işlər naziri Tofiq Zülfüqarov buna dair tutarlı bir şərh verib. O, Qarabağ münaqişəsinin ən dərin bilicisidir. Tofiq Zülfüqarov deyib: ”Ruslar gedəcəklər!”. Hətta ola bilsin ki, 5 il tamam olmamış getdilər. Rusiya Ermənistandan da gedəcək. Bizim bəzi ”politoloqlar ” isə haray-həşir salırlar ki, ruslar burada qalacaqlar. Ümumiyyətlə, hər hansı bir məsələyə münasibət bildirəndə onun tarixi perspektivləri nəzərə alınmalıdır. Ümumdünya Kommunist sistemi dağıldı. Dünya Sosialist sistemi dağıldı. Sovet ittifaqı dağıldı. Hazırda Rusiya zəifləməyə davam edir. Bu, tarixi prosesdir. Bu tarixi prosesin fonunda necə ola bilər ki, Rusiya birdən-birə güclənsin, gəlib ölkələri tutsun və SSRİ-ni bərpa etsin. Buna inanırsınız? Rusiya ölür, zəifləyir. Addım-addım çürüyür. SSRİ birdən dağıldı? Onun dağılması üçün zəifləmə prosesi getməli idi və getdi də. İndi də Rusiya çürüyür. Rusiyanın biznesmenləri sərvətlərini xaricə daşıyırlar. Elm, təhsil, səhiyyə biliciləri ölkədən köçürlər. Alimlər qaçırlar. Bunu görürük. Rusiya rüşvətxorlar, banditlər yuvasına çevrilib. Bir polkovnikin evindən 9 milyard pul tapılıb. Rusiya budur. Necə ola bilər ki, belə bir ölkə birdən-birə dirçəlsin və SSRİ-ni bərpa etsin. Fransa, Britaniya, Niderland, İspaniya, Osmanlı imperiyası bərpa olunub? Yox! Nəyə görə Rusiya imperiyası bərpa olunmalıdır? Hələ Fransa, İngiltərə, İspaniya, Türkiyə inkişaf etmiş demokratik ölkələrdir. Onlar imperiyanı bərpa edə bilmirlərsə, Rusiya necə edə bilər axı?! Rusiya mütəmadi olaraq tənəzzülə uğrayır. Belə bir ölkənin birdən-birə gəlib imperiya bərpa etməsi mümkün deyil. Nə baş verir? Günəş Qərbdən çıxır?

**- Bir sözlə, SSRİ bərpa olunmayacaq...**

- Bu, mümkün deyil. Fransa, İngiltərə imperiyası bərpa olunmayacaq.

**- Yanvarın 11-də KTMT-yə üzv ölkələrin onlayn iclasında Belarus Prezidenti Aleksandr Lukaşenko bəyan edib ki, Qazaxıstandakı ssenari Özbəkistanda da təkrarlana bilər...**

- Aleksandr Lukaşenko seçki ərəfəsində biabır olandan sonra politoloq kimi danışmağa başlayıb.

**Söhbətləşdi:**
**Xanlar Əlibəy,**
**Ayyət Əhməd**

# Hərbi qarşıdurma ehtimalı güclənir

## NATO və Rusiya tərəfindən səslənən bəyanatların ruhundan barıt qoxusu gəlir



**ABŞ Dövlət Departamentinin mətbuat xidmətinin rəhbəri Ned Prays Brüsseldə aparılan müzakirələrdən danışıb. Departament rəsmisi vurğulayıb ki, Vaşinqton Ukrayna ətrafındakı status-kvonun saxlanması şərti ilə rəsmi Moskva ilə dialoqun davam etməsində maraqlıdır: ”Biz Rusiya ilə əlavə diplomatik təmasları gözləyirik.**

Ümid edirik ki, bu diplomatik yol davam etsin və öz bəhrəsini versin”. Qeyd edək ki, Belçikanın paytaxtı Brüsseldə Rusiya-NATO Şurasının iclası keçirilib. Rusiya hərbi alyansdan keçmiş sovet respublikaları hesabına genişlənmədən imtina etməsini, yaxın və ortamənzilli raketlərin bir-birinə çatacaq məsafədə yerləşdirməməsini və həmin ərazilərdə keçirdiyi təlimlərin sayını azaltmasını istəyib. Rusiyanın Xarici işlər naziri Sergey Lavrov bildirib ki, Rusiyanın təhlükəsizlik təminatı ilə bağlı danışıqlarda ABŞ və müttəfiqlərində olmayan arqumentlər var. Lavrov qeyd edib ki, Qərbin öz dominantlığını təsdiq etmək cəhdləri Rusiya ilə təhlükəsizlik zəmanətləri üzrə danışıqların gedişində özünü tam şəkildə göstərib: ”Danışıqlara gəlincə, proseslər Qərbin dünya səhnəsində ciddi qarşıdurmanı, öz dominantlığını təsdiqləmək cəhdini, öz maraqlarını irəli sürmək üçün zəruri görünən hər şeyə şübhəsiz nail olmaq istəyini əks etdirir”. Rusiya XİN başçısı Qərbin mövqeyini barışmaz adlandırsa da, danışıqların işgüzar və sakit tərzdə keçdiyini əlavə edib. O, tərəflərin bir-birini başa düşmək perspektivinə ümidli olduğunu və təhlükəsizlik zəmanəti ilə bağlı danışıqların Moskvanın gözləntisinə uyğun keçdiyini söyləyib. Rusiyanın baş diplomatı onu da qeyd edib ki, Amerika Rusiyanın alyansın genişlənməməsinə dair zəmanət tələb etmək hüququnu qəti şəkildə rədd edir: ”Rusiya ümid edir ki, Qərb öz vədini yerinə yetirəcək və Rusiyanın təhlükəsizlik zəmanəti ilə bağlı təkliflərinə reaksiyasını sənədlə ortaya qoyacaq”.

**Siyasi şərhçi Aqşin Kərimov ”Şərq”ə açıqlamasında bildirib ki, NATO-Rusiya danışıqları sülhün əldə olunması üçün çevrələri daraldır və hərbi qarşıdurma ehtimalını gücləndirir. Analitikin fikrincə, böhranın hüdudları genişlənir:** ”NATO və Rusiya tərəfindən təqdim edilən bəyanatların ruhundan ”barıt qoxusunun” gəlməsi belə deməyə əsas verir. Təbii ki, əvvəldən bu danışıqlardan ciddi nəticə gözlənilmirdi. Hər halda eskalasiyasını dayandıracaq ideyaların tərəflərdə qısamüddətli olsa ”hərbisiz daha gözəldir” fikri formalaşdıracağına inam var idi.

Ancaq dünyanın iki hərbi-siyasi qütbü təhlükəsizlik üçün razılığa gəlmək əvəzinə Avropanı və Ukraynanı daha təhlükəli bataqlığa sürükləmək variantını seçdilər.

Rusiyanın məqsədini bir cümlə ilə ifadə edək: Ukrayna və Gürcüstan NATO-ya üzv olmamalıdır. NATO-nun da cavabını bir cümlə ilə qeyd edək: Üzvlük qapısı heç bir ölkənin üzünə bağlı deyil. ”Daş qayaya rast gəlib”, bu çarpışmadan doğan qırıntılar isə başqa ölkələrin üzərinə sıçrayır. Gələcəkdə Rusiyanın da, NATO-nun da özünün hərbi gücünü artıracağı şəksizdir. Tərəflər bir-birinin gücünü düzgün dəyərləndirmək üçün hibrid müharibə vasitəsi olan kiberhücumlar həyata keçirirlər, kəşfiyyat məlumatları və peyk görüntülərini diqqətlə analiz edirlər.

Hər iki tərəfdə isə əhəmiyyətli boşluqlar mövcuddur, bunu Rusiya xarici işlər nazirinin müavini Aleksandr Qruşko müzakirələrə dair danışarkən həmin boşluqların mövcudluğunu etiraf edib. Demək ki, NATO danışıqlarda Rusiyanı sanksiyalarla qorxuda bilməyəndə, əlində olan bütün imkanları səfərbər edərək Rusiyanın ”Axilles dabanı”nı tapacağını deyib. Ona görədir ki, Qruşko diplomatik qəzəb üslubunda bildirib ki, NATO Rusiyanın müdafiə sistemindəki zəif nöqtələri axtarsa, Rusiya da analoji hərəkətə keçəcək. Onsuz da hər iki tərəf bu illər ərzində bir-birinin kövrək təməllər üzərində qurulan hərbi hədəflərini müəyyən etməyə çalışıblar, onların hər ikisində bu zəif nöqtələrə dair məlumatlar var. Lakin görünür ki, son zamanlar dislokasiya yerlərinin dəyişməsi, raket sistemlərinin yerinin başqa yerlərə köçürülməsi yeni həssas boşluqlar yaradır, bu boşluqların doldurulması üçün isə zaman lazımdır”.

*A.Kərimova görə, NATO-nun canlı qüvvəsi, nüvə potensialı və digər silah arsenalı müstəvisində hərbi gücü texniki baxımdan Rusiyanı üstələsə də, Rusiya Avropa istiqamətinə yön alan cəbhədə böyük hərbi-strateji üstünlüyə malikdir:* ”Üstəgəl, Rusiyada analoqu olmayan silahlar mövcuddur - xarakteristikasına görə rəqiblərini üstələyəcək atom sualtı gəmilərindən tutmuş, dünyada ən uzaq mənzilli ballistik raketlərə qədər. Tərəflərin hərbi gücü bir-birini qorxutma aktıdır. Amma bu qorxuya qarşı həlledici vərdişlər formalaşdırılıb deyə, o qədər də keçərli deyil.

Ukraynanı əhatəyə alan gərginlik region üçün heç də xoş olmayan proqnozlar səsləndirmək üçün əsaslar verir. Danışıqlardan çıxarılan nəticə budur ki, gərginlik davam edəcək və Avropa üçün yeni təhlükələr gətirəcək”.

**İsmayıl Qocayev**

**Ermənistanın hərbi-siyasi rəhbərliyinin Azərbaycanla dövlət sərhədində törətdiyi son təxribatlar ermənilərin ciddi narazılığına səbəb olub. ”Report” ”News.am”a istinadən xəbər verir ki, yanvarın 13-də bir qrup sakin paytaxt İrəvanda hökumət binasının qarşısında etiraz aksiyası keçirib.**



# İrəvanda aksiya...

## Erməni gənclər Paşinyan hakimiyyətinin təxribatlarının qurbanı

Onlar Baş nazir Nikol Paşinyanın rəhbərlik etdiyi hökuməti sərhəddə təhlükəsizliyi təmin edə bilməməkdə ittiham ediblər və son təxribatlara etirazlarını bildiriblər.

Aksiya iştirakçıları deyiblər ki, hökumət 18-20 yaşlı əsgərləri heç bir hazırlıq keçmədən sərhədə göndərir.

**İrəvanda baş verən hadisələri ”Şərq”ə şərh edən politoloq Elxan Şahinoğlu bildirib ki, Ermənistan cəmiyyəti artıq gənclərini itirmək istəmir.**

”Birinci atəşkəsi Ermənistan tərəfi pozub, çünki ilk şəhidi biz verdik. Daha sonra biz cavab atəşilə iki postu dağıtdıq və onlar da itki verdilər. Yəni, erməni cəmiyyətinə də aydındı ki, Ermənistan tərəfinin təxribatlarla bağlı açıqlaması yalandır. Ona görə də anlayırlar ki, Azərbaycan təxribatlara artıqlaması ilə cavab verəcək. Və onlar öz gənclərini itirəcəklər. Nəticədə etirazlarını bu cür bildirirlər. Paşinyan əslində bu təxribatlara niyə yol verir? Ona görə ki, Qazaxıstandakı hadisələrdən həvəslənib Rusiyanı prosesə qatmaq istəyir. Ancaq Rusiya məsələyə reaksiya vermədi. Dövlət başçısı da vurğuladı ki, nə qədər belə təxribatlar olacaqsa artıqlaması ilə cavab verəcəyik və heç kəs buna heç nə deyə bilməz. Erməni cəmiyyəti narazıdır. Paşinyan hər dəfə təxribata əl atır. İtirən yenə də Ermənistan olur”.

**Mövzu ilə bağlı danışan digər ekspert Tural İsmayılov isə bildirib ki, Ermənistanda valideynlər övladlarını əsgərliyə göndərmək istəmirlər, hətta bunun üçün rüşvətə əl atırlar.**

”Ümumiyyətlə, Ermənistan hərbi xaotiklik vəziyyətinə görə nəinki bizim regionda, dünyada ad çıxarmış ölkələrdən biridir. Ermənistan hərbi nizam-intizamının olmaması və hərbçi çatışmazlığına görə də reytinqlərində həmişə yüksək sıralarda olub. 44 günlük Vətən müharibəsində də aldıqları məğlubiyyət təkcə Ermənistan ordusunun  və maddi-texniki təminatının dağıdılması demək deyildi. Buna görə də Ermənistanda valideynlər övladlarını əsgər göndərməməyə çalışırlar. Rüşvət və korrupsiya yolu ilə saxta sənədlər düzəldərək övladlarını hərbidən yayındırır. Eyni zamanda heç kim müqaviləli şəkildə orduda xidmət etmək istəmir. İş və maaş xatirinə olsa belə. Hansı ki, Ermənistanda iqtisadi durum da kifayət qədər bədbin proqnozlar üzərində qurulub. Bu baxımdan Paşinyan ölkədəki bu rəzaləti etiraf etmək məcburiyyətində qalıb. Ona görə də son aylarda artıq dəfələrlə müdafiə nazirlərini dəyişib. Ermənistanın heç bir hərbi mövcudluq imkanları qalmayıb. Əgər kövrək dövlətçilik elementlərini qorumaq istəyirlərsə, qalib tərəf kimi Azərbaycanın diktə etdiyi şərtlərə əməl etməlidirlər”.

**Sənan İsmayıl**



# "Laçın dəhlizindən kimin gəlib keçdiyini izləyə bilirik"

## Fəzail Ağamalı: “Sülhməramlıların yeni komandanına ciddi xəbərdarlıqlar edilib”

**Prezident İlham Əliyev yanvarın 12-də yerli televiziya kanallarına müsahibə verib. Dövlət başçısı müsahibədə jurnalistlərin Azərbaycanda 2021-ci ildə iqtisadi, sosial sahələrdə görülən işlərə, Azərbaycan ilə Ermənistan arasındakı münasibətlərə, işğaldan azad edilmiş ərazilərdə aparılan yenidənqurma işlərinə, ölkəmizin xarici siyasətinə və digər məsələlərə dair suallarını cavablandırıb. Ölkə başçısı Laçın dəhlizinə diqqət çəkib.**

**Prezident bildirib ki, Laçın dəhlizi bizim nəzarətimiz altındadır:**

”Siz Şuşada olmusunuz, görmüsünüz. Biz orada istənilən maşını saxlaya bilərik və heç kim bizə heç nə deyə bilməz. Ona görə belə hallar baş verir, buna yol vermək olmaz qətiyyən və buna son qoyulmalıdır. Məndə olan məlumata görə, Qarabağa gələn Ermənistan nümayəndələri sülhməramlı missiyaya xarici vətəndaşların səfərləri ilə bağlı müraciətlər edirlər. Orada ya icazə verilir, ya da ki, verilmir. Ümumiyyətlə, deyə bilərəm ki, həm giriş-çıxışda, həm Xankəndidə, həm ətraf bölgələrdə baş verən bütün hadisələrdən bizim dəqiq xəbərimiz var. Ona görə bizdən nəyisə gizlətmək, ”görməmişik, bilməmişik” demək, qeyri-ciddidir”.

**Millət vəkili Fəzail Ağamalı ”Şərq”ə açıqlamasında qeyd edib ki, prezident son müsahibəsində mövcud vəziyyətlə bağlı yeni fikirlər səsləndirdi, qarşıya ciddi vəzifələr qoydu, Qarabağda baş verən hadisələrə münasibət bildirdi:** ”Həmçinin rus sülhməramlılarının fəaliyyətində müsbət, eləcə də qıcıq doğuran  məsələlərdən danışdı. Bu məqamda Fransa prezidentliyinə namizədin bura xəlvət gəlişi, onun gəlişində və digər məsələlərdə sülhməramlı qüvvələrin oynadığı maraq da Cənab Prezident tərəfindən tənqid edildi”.

*Millət vəkili bəzi şəxslər tərəfindən səsləndirilən ”guya Laçın dəhlizinə Azərbaycan tərəfin nəzarəti yoxdur” fikrinə toxunub:*

”Ölkə başçısı da bildirdi ki, ora gəlib-gedənlərin üzərində bizim də nəzarətimiz var. Laçın dəhlizindən kimin gəlib keçdiyini izləyə bilirik. Bu dəhlizdən keçənlər istənilən halda Azərbaycanın Silahlı Qüvvələri tərəfindən yoxlanılır”.

**F.Ağamalı Rusiya sülhməramlı kontingentinin fəaliyyətinə diqqət çəkib:**

”Bildiyimiz kimi bu günlərdə Azərbaycan tərəfinin ciddi narazılığı nəticəsində sülhməramlıların komandanı da dəyişdi. Düşünürəm ki, yeni komandan Müdafiə Nazirliyi səviyyəsində qəbul edilərkən ona cənab nazir tərəfindən ciddi xəbərdarlıq edilib. Bir sıra mesajlar verilib. Bütün bunlardan sonra vəziyyət bir az da ciddiləşəcək. Prezidentin Laçın dəhlizi, eləcə də sülhməramlıların fəaliyyəti ilə bağlı səsləndirdiyi fikirlər öz nəticəsini verəcək və bundan sonra çağırılmamış qonaqların ora gəlişinə imkan verilməyəcək”.

*Parlamentari söyləyib ki, hazırda Qarabağda aparılan quruculuq işləri  və erməni separatçılarına, onların təxribatlarına qarşı qətiyyətli mövqemiz rəsmi İrəvan üçün çox ciddi psixoloji təzyiqdir:* ”Onlar bilirlər ki, artıq  Azərbaycan torpağında  qalma imkanları yoxdur. Bu düşüncə ilə qala da bilməzlər. Azərbaycanın apardığı siyasət, ölkə başçısının müəyyən etdiyi yol xəritəsi tamamilə bizim maraqlarımıza uyğundur. Biz güllə atmadan, hər hansısa bir anti-terror əməliyyatı aparmadan erməni separatçıların doğma torpaqlarımızdan çıxmasına nail olacağıq. Onlar isə bütün təxribatların gərəksiz olduğunu anlayacaqlar”.

**Günəş Mərd**

# Bir dəfə şans veriləcək

## Zəngəzur dəhlizinin açılması həm də Ermənistanı böyük fəlakətdən xilas edə bilər

**Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 12-də  yerli televiziya kanallarına müsahibəsində jurnalistlərin Azərbaycanda 2021-ci ildə iqtisadi, sosial sahələrdə görülən işlərə, Azərbaycan ilə Ermənistan arasındakı münasibətlərə, işğaldan azad edilmiş ərazilərdə aparılan yenidənqurma işlərinə, ölkəmizin xarici siyasətinə və digər məsələlərə dair suallarını cavablandırıb.**

Prezident İ.Əliyev müsahibə zamanı Zəngəzur dəhlizi məsələsindən də danışıb.

Dövlət başçısı Ermənistan tərəfinin Zəngəzur dəhlizi ifadəsinə çox böyük qısqanclıqla yanaşdığını söyləyib. ”Bilmirəm, nəyə görə? Amma deyə bilərəm ki, bu terminin - təvazökarlıqdan uzaq olsa da, - müəllifi mənəm”- deyə o qeyd edib.

Bunu nə üçün məhz Zəngəzur adlandırdığını izah edən prezident bildirib: ”Ona görə ki, birincisi, bu, Zəngəzurdur, bunun tarixi adıdır. Azərbaycan toponimidir, necə ki, Zəngilan, Zəngəzur, Zəngi çayı, -  hansı ki, ermənilər indi Razdan adlandırırlar, - Azərbaycan toponimidir. İkincisi, biz bu dəhlizə, sadəcə olaraq, dəmir yolu kimi baxmırıq. Çünki bu dəhlizdən həm dəmir yolu, həm də avtomobil yolu keçəcək. Bizim planımızda var, gələcəkdə oradan Naxçıvana elektrik xətləri çəkilsin. Çünki bizim elektrik enerjisi ilə bağlı çox böyük ixrac planlarımız var. Mən qeyd etdim ki, sabah 240 meqavatlıq külək elektrik stansiyasının təməli qoyulacaq. Cəbrayıl rayonunda 240 meqavatlıq yeni günəş stansiyasının tikintisi ilə bağlı xarici investorlar artıq bizə rəsmən müraciət edib. Xudafərin, Qız qalasında biz 140 meqavat elektrik enerjisi əldə edə bilərik. Kəlbəcər və Laçında isə 10 min meqavata yaxın potensial var, külək və enerji gücləri almaq imkanımız var. Ona görə biz elektrik xətləri də nəzərdə tuturuq. Ondan sonra ola bilsin ki, qaz xətləri də oradan keçsin”. Azərbaycan Prezidenti  Zəngəzur dəhlizinin bütün Zəngəzur bölgəsini əhatə etməli olduğunu vurğulayıb.

**Zəngəzur dəhlizinin açılması ilə bağlı ”Şərq”ə danışan BDU-nun Jurnalistika fakültəsinin professoru, siyasi elmlər doktoru Sabir Məmmədli Zəngəzur dəhlizinin 10 noyabr 2020-ci il üçtərəfli bəyanatın şərtlərinə uyğun açılmalı olduğunu bildirib:** ”Reallığı nəzərə alsaq, dəmir və avtomobil yolu, eləcə də elektrik enerjisi xətləri istifadəyə veriləcəyi gözləniləndir. Ola bilsin, qaz kəmərləri də çəkiləcək. Çünki Naxçıvan Muxtar Respublikasına İran qaz nəql edir. Ermənistan transmilli, transsərhəd qaz kəmərlərinin çəkilməsinə razılıq verməlidir. Əgər Ermənistan ərazisindən belə qaz kəməri keçərsə, onların büdcəsinə vəsait gələcək. Təəssüf, rəsmi İrəvan revanşist əhval-ruhiyyədədir. Ona görə də Zəngəzur dəhlizini reallaşdırmaq istəmir və çalışmır. Dövlət başçısı İlham Əliyev Brüsseldə NATO-nun Baş katibi Yens Stoltenberqlə görüşündən sonra keçirilən mətbuat konfransında açıqlama vermişdi. Sitat: ”Zəngəzur dəhlizində də heç bir gömrük postları olmamalıdır. Əgər Ermənistan karqolara, insanlara nəzarət etmək istəsə, biz də Laçın dəhlizində gömrük postu açacağıq”.

Bununla əlaqədar məsələnin arxasında Rusiya, müəyyən mənada İran dayanır. XIX-XX əsrdə də Rusiya Naxçıvan, Türkiyəylə Azərbaycan və Türk dünyasının qalan hissəsində dəhliz kimi gediş-gəliş imkanları olmasını heç vaxt istəməyib. Rusiya həmişə Türkiyənin qarşısını almağa çalışıb. Məhz Zəngəzurun vaxtilə Ermənistana verilməsi də, Rusiyanın əsas məqsədlərindən idi. Mehri və Qafan rayonlarını bolşeviklər Ermənistana veriblər”.



*"İrəvan ağlını başına toplamasa Azərbaycan Ordusu Mehri ərazisini yarıb keçərək Naxçıvana çıxacaq"*

**S.Məmmədli vurğulayıb ki, rəsmi Moskva dəhlizin tərəfdarı olduğunu söyləməsinə rəğmən, bu istək əməldə görünmür:** ”Əsrlər boyu, SSR dövründə də Rusiya belə bir siyasət yürüdüb. Zəngəzur bölgəsini Ermənistana verməklə, Türkiyənin Türk dünyası ilə əlaqəsini qoparmaq məqsədi güdüb. Birdən-birə rəsmi Moskvanın Prezidenti V.Putin indiyədək olan imperiya siyasətinin əksinə getmək istəməz. Yalnız məcburiyyət qarşısında qəbul edəcək. Ermənistan Rusiyanın istəyini ifadə etdiyinə görə onun arxasında dayanıb. Amma rəsmi İrəvan dəhlizin açılmasına razılıq versə, onda Kreml meydana çıxaraq müəyyən problemlər yaradacaq. Çünki Rusiya Cənubi Qafqaz ərazisində öz mövcudluğunu gücləndirməyə çalışır. Azərbaycan rəhbərliyi kəskin məsələ ortaya qoymalı və hərəkətə keçməlidir. Laçın dəhlizinə nəzarət mexanizmi, gömrük postu yaradılmalıdır.  Laçında nəzarət mexanizmi yaranarsa, deməli, gələcəkdə Qarabağda rus sülhməramlılarına ehtiyac yoxdur. Çünki ermənilər orada yaşamayacaq.

Ermənistan sülh sazişi ilə razılaşmır. Dildə deyir, faktiki olaraq həyata keçirmir. Prezident açıq şəkildə qeyd etdi ki, sülh sazişi daim masanın üzərində olmayacaq. Bir müddət sonra Azərbaycan rəsmi İrəvana heç bir təklif irəli sürməyəcək. Elə bir vəziyyət yaranacaq ki, nə Azərbaycan Ermənistanın, nə də Ermənistan Azərbaycanın sərhədlərini tanıyacaq. Belə bir şəraitdə Azərbaycan Ordusu Mehri ərazisini yarıb keçəcək və Naxçıvana çıxacaq. Bu, ən kritik məqamdır. Bu, Ermənistanın ağlını başına yığmalı olduğuna işarədir. Ona görə, Ermənistan Azərbaycanın istəklərinə uyğun addım atmalıdır. Ermənistan Rusiyanın həmişə onun arxasında dayanacağını və Vladimir Putinin həmişə prezident olacağını düşünməsin. Vaxtı gələndə Azərbaycan Ordusu məsələni reallaşdıra biləcək”.

**Aygün Tahir**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Fikir, söz azadlığı, plüralizmin inkişaf etdirilməsi

Məlahət Rzayeva

# Media daha məsuliyyətli, daha obyektiv olmalıdır

## Etimad, güvən jurnalistlərin üzərinə həm də vəzifə qoyur





**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev yanvarın 12-də yerli televiziya kanallarına müsahibə verdi. İlk növbədə bunu qeyd etməliyik ki, cənab Prezident mediaya həmişə açıq olub. Jurnalistləri özünün yaxın dostu hesab etdiyini dəfələrlə vurğulayıb. Bəzi məlumatları məhz mediadan aldığını, orada göstərilən faktların araşdırılması üçün göstərişlər verdiyini vurğulayıb.**

Cənab Prezident medianın ictimai nəzarət funksiyasını hər zaman yüksək qiymətləndirib. Bu, dövlət başçısının ümumilikdə mediaya, xəbər yayımçılarına inamının, onlara verdiyi dəyərin göstəricisidir. Dövlət başçısı yerli media subyektləri ilə yanaşı, xarici media nümayəndələrinə qarşı da hər zaman diqqət nümayiş etdirir. 44 günlük Vətən müharibəsində cənab Prezident 10-larla xarici media quruluşuna, xarici jurnalistlərə müsahibələr verdi, baş verən hadisələri ən müfəssəl şəkildə izah etdi, dövlətin mövqeyini bəyan etdi. Jurnalistlərlə dünənki təmas isə dövlət başçısının yerli media nümayəndələrinə inamını bir daha sübut etdi. Bu həm də dövlət başçısının ölkə mediasından gözləntilərinin böyük olduğunu göstərdi. Kadr islahatlarından, bəzi hallarda məmur özbaşınalığı, qanun pozuntuları, korrupsiya hallarından danışan Prezident bir daha vurğuladı ki, bu məsələlərin işıqlandırılmasında medianın üzərinə böyük məsuliyyət düşür: "Biz cəmiyyətdə elə ab-hava yaratmalıyıq ki, ictimai nəzarət gücləsin. Siz yaxşı bilirsiniz ki, mən dəfələrlə bu məsələ ilə bağlı öz fikirlərimi bildirmişəm. Mən daim bunu deyirəm, vətəndaşlara müraciət edirəm, biganə qalmayın və nəzarət edin. İctimai nəzarət bir çox məmurları bu cinayət xarakterli işlərdən çəkindirəcək. Ona görə ictimai nəzarətin hansısa institusional formatı da gərək işlənilsin. Sizin, media nümayəndələrinin bu sahədə çox böyük rolunuz var. Deyə bilərəm ki, mən bəzən xoşagəlməz hallar haqqında sizdən öyrənirəm, sizdən bu xəbəri tuturam və dərhal reaksiya verilir. Deyə bilərəm ki, bir çox hallarda mediada olan məlumatlar təsdiqlənir. Elə məlumatlar var ki, onlar qərəzli xarakter daşıyır. Amma məlumatların mütləq əksəriyyəti təsdiqlənir və dərhal ölçü götürülür. Ona görə dövlət məmurları bilməlidirlər, onların işinə təkcə Prezident Administrasiyası yox, həm ictimaiyyət, həm də media nümayəndələri nəzarət edir".

Bundan əvvəl də cənab Prezident baş verən korrupsiya halları, məmur özbaşınalıqları haqqında, həm də mediadan məlumat əldə etdiyini bildirib. Bu onu göstərir ki, media dövlət başçısının, belə ifadə etmək mümkünsə, etibarlı dostudur. Prezident mediaya güvənirsə, media bu güvənin sarsılmamasına çalışmalıdır. Bunun üçün nə edilməlidir?

**Əməkdar jurnalist Azər Həsrət "Şərq"ə açıqlamasında qeyd etdi ki, dövlət başçısı jurnalistlərə inamını ifadə edib etimad göstərdiyini deyirsə, bizim məsuliyyətsiz davranmağa haqqımız çatmır:**

- İlk dəfə deyil ki, cənab Prezident

***Azər Həsrət: "Peşəkar jurnalistika ümumilikdə medianın keyfiyyətinin yüksəldilməsinin qayğısına qalmalıdır. Biz jurnalistlərin dövlət başçısını yanıltmaq haqqımız yoxdur"***

mediaya inamını ifadə edir. Xatırlayırsınızsa, bir neçə il əvvəl Mətbuat Şurası İdarə Heyətinin üzvləri, jurnalistlərlə görüşü zamanı da Prezident bu fikri vurğulamışdı. Təxminən belə demişdi ki, bəzən məmurlar hansısa məlumatı gizlədir, gizlətdikləri məlumatı o, mətbuatdan alır, mətbuatdan xəbər tutur və ölçü götürülür. Bu, mətbuatın daha məsuliyyətli olmasına dövlət başçısı tərəfindən, əlbəttə bir çağırış idi. Gəlirəm, sizin sualınıza. Prezidentin mediaya etibar etməsi, etimad göstərməsi jurnalistlərin üzərinə vəzifə qoyur: daha məsuliyyətli, daha dürüst, daha obyektiv olmaq. Artıq elə bir dövrdür ki, jurnalistika hamı üçün açıq müstəviyə çevrilib. Ona görə də bu sahədə təsadüfi adamlar da var. Sui-istifadə hallarına da yol verilir. Söz azadlığını bəhanə edib dövlət mənafeyinə zidd informasiyaların yayılmasına çalışırlar. Belə şəraitdə peşəkar jurnalistika ümumilikdə medianın keyfiyyətinin yüksəldilməsinin qayğısına qalmalıdır. Biz jurnalistlərin dövlət başçısını yanıltmaq haqqımız yoxdur. Bir halda ki, dövlət başçısı bəzi məlumatların əldə edilməsində, hansısa məlumatların yoxlanmasında mediaya istinad edir, mediaya güvənir, jurnalistlər də çalışmalıdır məlumatları daha dəqiq araşdırsınlar, daha tutarlı, etibarlı mənbələrə istinad edərək və obyektiv şəkildə işıqlandırsınlar, tirajlasınlar. Həmçinin qanunlar çərçivəsində çalışsınlar, fəaliyyət göstərsinlər. Dövlət başçısını, ictimaiyyəti yanıltmaq istəyən, buna cəhd edənlərin səylərini boşa çıxarsınlar. Məmurlar tərəfindən məlumatların gizlədilməsinə, ört-basdır edilməsinə, məhz dövlət mənafeyi naminə imkan verməsinlər. Biz jurnalistlərdən dövlət başçısının gözlədiyi budur.

Məlahət Rzayeva

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Kremlin atdığı hər addımın adı işğal olacaq

## Rusiyanın ikinci dəfə sovetlər birliyini yaratmaq niyyəti reallıqdan çox uzaqdır



**Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının Qazaxıstandakı sülhməramlı qüvvələrinin missiyası tamam oldu. Bir neçə gün əvvəl də Qazaxıstan prezidenti bildirmişdi ki, sülhməramlı qüvvələr yaxın zamanda ölkəni tərk edəcək. Lakin bir çox ekspertlər Rusiyanın Qazaxıstandan çıxacağına əmin olmadığını bildirir, hadisələrin belə tezliklə bitəcəyinə şübhə ilə yanaşırlar.**

*Azərbaycanlıların və digər Türkdilli Xalqların Əməkdaşlıq Mərkəzinin sədri İlham İsmayılov bildirib ki, Rusiya əslində KTMT-dən bir vasitə kimi istifadə edir, heç vaxt praktik olmayan bu hərbi bloku canlandırmaqla, dərinləşən Rusiya-NATO gərginliyinə region dövlətlərini də alət etməyə cəhd edir:* "Rusiya post-sovet ölkələrinin böyük əksəriyyətində milli zəmində bilərəkdən münaqişə ocaqları yaradıb, dövlət siyasəti hər zaman separatizmin inkişafı üçün münbit şərait yaratdı. Rusiyanın Qazaxıstana həmləsini Ukrayna və Gürcüstana olan işğalçılıq siyasətinin davamı kimi də görə bilərik. Sadəcə bu məsələdə Rusiya bir az fərqli davrandı. Özünü işğalçı kimi yox, qurtarıcı kimi təqdim etməyə çalışdı, lakin hesab edirəm ki, Rusiyanın məqsəd və məramı hamı üçün çox aydın və netdir. Rusiya siyasətinin ana xəttini həmişə işğalçılıq siyasəti tutur. Ola bilsin ki, çox yaxın zamanda sülhməramlılar Qazaxıstanı tərk etdi, lakin bu bir president olaraq qalacaq və Rusiyanın bu addımı hər an işğala döndərə biləcəyi mesajını da verməkdədir".

**İ.İsmayılov Rusiyanın keçmiş sovetlər birliyini yenidən inşa etmək planına da münasibət bildirərək, qeyd edib ki, bu fikirləri tirajlamaq daha çox Rusiyanın maraqlarına uyğundur:** "Rus strateqləri belə fikirləri tez-tez gündəmə gətirməklə xalqların şüuraltında bu fikirləri çiçəkləndirmək, onları bu təslimiyyətə məcbur etmək istəyir. Keçmiş post-sovet ölkələrində rus dilinin, mədəniyyətinin, ədəbiyyatının təbliği də məhz buna hesablanıb. Son günlər yenidən SSRİ-2 layihəsinin ortaya atıldığını, hətta tarixdən paralellər gətirilərək, bu məsələyə hüquqi don geyindirmək istəyənlər də çoxdur. Lakin bilməliyik ki, artıq müstəqil dövlətlərin hər birində öz ölkəsinin müstəqilliyinə sahib çıxacaq yeni təfəkkürlü bir nəsil yetişib. Bu müstəqil dövlətlərə qarşı Rusiyanın atacağı hər hansı addım isə işğaldan başqa bir şey olmayacaq. Qazaxıstan son illərdə Nursultan Nazarbayevin rəhbərliyi ilə ən çox milli kimliyinə dönən, milli varlığına qoruyan bir ölkəyə çevrilib. İnsanların bir çoxu işin mahiyyətini bilməyərək Nazarbayevin əleyhinə şüarlar səsləndirməklə nəyə xidmət etdiklərini indi anlamağa başlayıblar. Uzun illər Rusiyanın reallaşdırmaq istədiyi "SSRİ-2" layıhəsi Nazarbayev Qazaxıstanında mümkün olmadığı üçün bu yolla onu siyasi hakimiyyətdən uzaqlaşdırmaq lazım idi. Artıq insanlar bunu tam mənası ilə anlayıblar. Rusiya da yaxşı anlayır ki, bu ölkədə uzunmüddətli qalması anti-rus havası gətirəcək, mənfi imici formalaşacaq. Rusiyanın ikinci dəfə sovetlər birliyini yaratmaq istəməsi isə fikir ola bilər, yalnız gerçəkləşməyən bir xülya olacaqdı".

*ATXƏM-nin sədri Türk Dövlətləri Təşkilatının Qazaxıstan hadisələri ilə bağlı mövqeyinə və təşkilatın görə biləcəyi işlərə də münasibət bildirib:* "Hamımız bilirik ki, Türk Dövlətləri Təşkilatı Qazaxıstanda baş verən hadisələrdə çevik reaksiya verə bilmədi. Doğrudur, Xarici işlər nazirləri bu hadisələrlə bağlı vahid mövqe sərgilədilər, gərəkən dəstəyi verəcəklərini qeyd etdilər. Lakin biz bu təşkilatın fəaliyyətini daha real addımların atılmasında görmək istəyirik. Hadisələrin arxasından münasibət bildirmək yox, lazım gəldiyində hadisələrin önündə olub, o hadisələri qabaqlamaq lazımdır. Hər halda bu hadisələr göstərdi ki, Türk Dövlətləri Təşkilatının daha çevik idarəetmə sistemləri formalaşmalıdır. Eyni zamanda bu təşkilat daxilində fövqəladə vəziyyətlərə hazırlıqlı olan güc strukturlarından ibarət bir birlik də formalaşdırılmalıdır". Baş verən hadisələrin tələm-tələsik həyata keçirilməsi isə əslində bu təşkilatın günbəgün artan nüfuzunun və formalaşan strukturlarından əmələ gələn bir narahatçılıq kimi də qeyd etmək olar. Və düşünürəm ki, bu hadisələr Türk dövlətləri təşkilatının daha da möhkəmlənməsinə xidmət edəcəkdir.

**İ.İsmayılov sosial şəbəkələrdə Qazaxıstandakı hadisələrin ölkəmizə transferinə çalışan bəzi qüvvələrin olmasına da münasibət bildirib. O qeyd edib ki, dünyada hansı hadisələr olmasından asılı olmayaraq, bu hadisələrin ölkəmizdə paralelini aparanlar hər zaman mövcud olub:** "Hesab etmirəm ki, Qazaxıstandakı hadisələr qeyd etdiyimiz səbəblərin nəticəsində baş vermişdi. Biz ölkəmizdə sabitliyi, əmin-amanlığı xalq olaraq hər zaman qorumuşuq. Hətta 44 günlük Vətən müharibəsi dövründə belə bir yumruq kimi birləşib, ölkəmizin bütövlüyünün təmin olunmasına çalışdıq. Bu gün bütün dünyada pandemiyanın da gətirdiyi sosial problemlər mövcuddur. Lakin bu problemlərin keçici olduğunu da hər birimiz görməkdəyik. Biz Azərbaycan cəmiyyəti olaraq gözəl anlayırıq ki, iğtişaşlar, təxribatlar heç vaxt problemin həlli olmayıb, əksinə, ölkəni daha da geri salıb. Biz torpaqlarımızı otuz illik işğaldan qurtarmışıq. Hazırda orada abadlıq-quruculuq işləri həyata keçirilir və xalqımız bir nəfər kimi bu işlərə öz töhfəsini vermək istəyir. Hesab edirəm ki, ölkəmizin apardığı bugünkü siyasət həm də regionun rifahı, gələcəyi üçündür".

Onu da qeyd etmək istəyirəm ki, zamanında Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş siyasi xəttin, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilməsi xalq-iqtidar birliyinin əsl nümunəsinə çevrilmiş "dəmir yumruq" zaman-zaman öz töhfəsini verməkdədir.

Sənan İsmayıl



# Ermənilər niyyətlərindən vaz keçməyiblər

## KTMT-dən istifadə gündəmdən çıxarılmayıb

**Prezident İlham Əliyev televiziya kanallarına müsahibəsi zamanı 44 günlük müharibənin daha bir epizodunu ictimaiyyətlə paylaşıb. Ölkə rəhbəri bildirib ki, Azərbaycan Ordusu Zəngilan istiqamətində Ermənistanla sərhədə doğru irəliləyəndə erməni tərəfi növbəti təxribata əl atıb.**

İrəvan Rusiyadan xahiş edib ki, Gümrüdəki hərbi bazanın bir hissəsi oraya, sərhədə, Zəngilana ezam edilsin: "Bunu onunla əsaslandırmaq istəyirdilər ki, guya, Azərbaycan Ermənistan ərazisinin Mehri hissəsini ələ keçirmək niyyətindədir. Hərçənd bizim belə niyyətimiz yox idi. Bununla belə Gümrüdəki Rusiya bazasının çox məhdud kontingenti oraya ezam edildi. Bu operativ informasiya bizdə vardı. Bu hadisə baş verəndən dərhal sonra erməni silahlı qüvvələri rusiyalı hərbi qulluqçuların arxasından Azərbaycan qoşunlarını atəşə tutmağa başladılar. Orada məsafə çox kiçik idi, buna görə onlar minamyotlardan da atəş açırdılar. Orada biz təlafat verdik. Lakin təbii ki, biz cavab verdik və dərhal Rusiyaya müraciət etdilər ki, Azərbaycan rusiyalı hərbi qulluqçuları atəşə tutur. Bu dərəcədə alçaqlığı təsəvvür etmək olarmı? İstəyirdilər ki, biz erməni mövqelərinə cavab atəşi açmaqla rusiyalı hərbi qulluqçulara ziyan vuraq, onlar öz məqsədlərinə çatsınlar və Rusiyanı bu müharibəyə cəlb etsinlər". Ermənistan tərəfinin 44 günlük müharibə dövründə müxtəlif metodlardan istifadə edərək Rusiyanı savaşa cəlb etmək niyyəti hamıya bəllidir. Savaşın gedişində İrəvan dəfələrlə üzv olduğu KTMT-yə müraciət edərək hərbi bloku Ermənistanın yanında yer almağa və Azərbaycana qarşı döyüşməyə çağırıb. Lakin KTMT Azərbaycanın öz qanuni əraziləri uğrunda savaşdığını bildiyi üçün Paşinyanın bütün çağırışlarını geri çevirib. Prezidentin açıqlamasından görünür ki, erməni tərəfi sadəcə rəsmi müraciətlərlə kifayətlənməyib. Rusiyanı prosesə cəlb etmək üçün bir çox çirkin oyunlara əl atıblar.

***"İstənilən halda Azərbaycan Ordusu gücünü, qüvvətini daim artırmalıdır"***

**Demokratiya və İnsan Hüquqları İnstitutunun rəhbəri Əhməd Şahidov "Şərq"ə bildirib ki, Ermənistan müharibənin ilk günündən dərk etdi ki, təkbaşına Azərbaycanın güclü Ordusu qarşısında tab gətirə bilməyəcək. Ekspertin sözlərinə görə, məğlub olacaqlarını əvvəlcədən bilən ermənilər savaşın ilk günündən etibarən kənar gücləri, xüsusən Rusiyanı müharibəyə çəkməyə çalışırdı:** "Bu niyyət erməni mediasında, sosial şəbəkələrdə açıq-aşkar görünürdü. Azərbaycanın təxribatlara aldanmadığını və Rusiya başda olmaqla KTMT-nin mövqeyini görən erməni tərəfi Moskvaya qarşı şantaja, ittihamlara başladı. Bunun da nəticə vermədiyini görəndə daha çirkin üsullarla baş vurdular. Əslində ermənilər öz niyyətlərindən vaz keçməyiblər. KTMT-dən istifadə bu gün də gündəmdədir. Quruma müvəqqəti sədrlik edən Ermənistan Qazaxıstandakı hadisələrdən sonra bir qədər "cəsarətlənib". Müharibə dövründə məqsədlərinə çatmaq üçün rus hərbçilərini hədəfə qoymağa çalışırdılarsa, bu gün sərhəddə təxribatlar törədirlər, əsgərimizi şəhid edirlər. Ordumuz düşmənin cavabını layiqincə verdi və 8 erməni hərbçi məhv edildi. Əsgərimizə atəş açılan erməni postu da darmadağın oldu. Hadisədən sonra erməni mediası yazdı ki, guya, Azərbaycan Ermənistana hücum edib, erməni postunu dağıdıb və s. Yeni bunu fürsət kimi dəyərləndirib KTMT-ni sərhədə gətirməyi düşünürdülər. Lakin hər zaman olduğu kimi İrəvanın fürsətcil siyasəti yenə fiaskoya uğradı. İstənilən halda Azərbaycan Ordusu gücünü, qüvvətini daim artırmalıdır".

İsmayıl Qocayev

# "Bəşir bəy Aşurbəyov və zəmanəsi"

## İnsanların simasında dövrün hekayəsini usta qələmi ilə canlandıra bilmək məharətidir




**XIX əsrin sonu, XX əsrin əvvəllərinin Bakısı və ümumən Azərbaycanı haqqında düşünəndə özündən asılı olmayaraq əsrarəngiz aləmə düşürsən. Bir tərəfdən, natural təsərrüfat və onun qoruyub saxladığı cəngavərlik ruhu, o ruhu yaşadan dəli-dolu igidlər... Digər tərəfdən də sürətli sənayeləşmə prosesinin gətirdiyi təhsil, elm, mədəniyyət havası, belə bir mühitdə geniş intişar tapan xeyriyyəçilik ənənələri. Və bütün bunların mərkəzində görünən parlaq ömürlər...**

Tarixi maraqlı edən, təbii ki, şəxsiyyətlərdir. Ömrü o tarixin bir parçasına çevrilmiş, zamanın ruhuna hopmuş insanlardır. Onların həyatı ilə tanış olduqca birdən-birə sanki bu adamların yaşadıqları dövrə düşürsən. Gözlərin önündə sirli aləm açılır. "Azərbaycan" qəzetinin şöbə redaktoru, Əməkdar jurnalist İradə Əliyevanın qələmə aldığı "Bəşir bəy Aşurbəyov və zəmanəsi" kitabı da belə maraqlı dünyaya səyahətdir.

Tarixlə az-çox maraqlanan, zamanı hiss etməyin necə təkrarolunmaz duyğu olduğunu yaxşı bilən istənilən oxucunun bu kitabın ilk səhifələrini diqqətlə gözdən keçirməsi kifayətdir ki, bir də kitabı artıq yarıladığını fərq etsin. "Bəşir bəy Aşurbəyov və zəmanəsi" oxucuya bu qədər böyük mütaliə zövqü yaşadan əsərdir. Kitabı belə maraqlı və oxunaqlı edənsə müəllifin özünün də uzun müddət ərzində topladığı faktlar, materiallar işığında o zamana gedib çıxmağı bacarmasıdır. İnsanların simasında dövrün hekayəsini usta qələmi ilə canlandıra bilmək məharətidir.

Tarixin ən qədim çağlarından fərqli olaraq biz XIX əsrin sonlarını, XX əsrin əvvəllərini daha dərindən hiss edə bilirik. Əslində burada da həmin şəxsiyyətlərin böyük rolu var. Çünki biz tarixin nisbətən yaxın dövründən həm daha çox şəxsiyyəti tanıyırıq, həm də onların irsi haqqında məlumatlıyıq. Ən əsası isə o insanların nəcib izləri - tikdirdikləri binalar, qurub-yaratdıqları, etdikləri yaxşılıqların mənəvi nəticələri gözlərimiz önündədir. Bu şəxsiyyətlərin nəsil şəcərələrinin davamçıları da yaşayır. İrs nəslin yeni təmsilçilərində davam edir. İradə xanım da "Bəşir bəy Aşurbəyov və zəmanəsi" kitabını əsərin qəhrəmanının ailə ocağının davamçıları ilə sıx ünsiyyət ovqatında qələmə alıb. Doğma insanların bütün çətinliklərə, həyatın ağır sınaqlarına rəğmən o şəxsiyyətlərdən əziz xatirə kimi qoruyub saxlaya bildikləri fotolardan, saralmış arxiv sənədlərindən geniş istifadə edib. Tarixi oçerk janrında qələmə alınmış yeni nəşr ona görə bu qədər canlı və maraqlıdır. Mütaliə etdikcə mətndəki fotoların bələdçiliyi ilə sanki kitab oxumur, çox gözəl bir sənədli filmə baxırsan.

Əcdadların ənənəvi həyat tərzi ilə qəfil başlanmış sürətli sənayeləşmə ab-havasının yaratdığı ziddiyyətli tarixi mühitə qeydlərimizin əvvəlində təsadüfi toxunmadıq: XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan həyatında çox geniş dəyişikliklər başlanmışdı. Bir tərəfdə mütərəqqi düşüncəli ziyalı maarifçilərimiz köhnə ehkamları həyatımızdan kənarlaşdıraraq cəmiyyətin tərəqqisinə nail olmaq istəyirdilər. Digər tərəfdə isə bu ehkamları qoruyub saxlamaq, atababaların yolunun davam etdirilməsini istəyən mühafizəkar zümrələr vardı. O dövrdə Azərbaycanın əsas inkişaf mərkəzinə çevrilmiş neft Bakısı xalqın savadlanması üçün məktəblər açan, bu məktəblərdə cəmiyyətin gələcəyi üçün savadlı gənclərin yetişməsinə çalışan, qəzet və jurnallar nəşr etdirən, teatrlar yaradan, müxtəlif təşkilatlar vasitəsilə siyasi mədəniyyət, dialoq mühiti formalaşdıran maarifpərvərlərlə, onlara dəstək olan messenatlarla qanunlara tabe olmaq istəməyən, hər kiçik münaqişəni silah dilində həll etməyə çalışan "atıb-vuran" adamları özündə birləşdirirdi. Bir də elə şəxsiyyətlər vardı ki, onlar bu iki yol, iki düşüncə tərzi arasında ortaq məxrəc tapa biləcəklərinə qəlbən inanırdılar. Həm yeni dövrün inkişaf ruhuna uyğunlaşırdılar, eyni zamanda əvvəlki ənənələrdən də tam qopmaq istəmirdilər. Onların hər iki sosial çevrədə öz yeri vardı. Hər iki sosial qrupda onlara böyük hörmətlə yanaşırdılar, ehtiram göstərirdilər. Belə şəxsiyyətlərdən biri də, heç şübhəsiz ki, Bəşir bəy Aşurbəyov idi.

Kitabda onun Cəfər Cabbarlı, Yisif Vəzif Çəmənzəminli kimi belə böyük fikir adamlarımızın təhsilinə vəsait xərclədiyini görürük. Onu da öyrənirik ki, Bəşir bəy müxtəlif nüfuzlu universitetlərdə 29 tələbəni oxudub. Bakıda Həsən bəy Zərdabinin də böyük zəhməti hesabına yaradılmış III Aleksandr adına Birinci Kişi Gimnaziyasının fəxri qəyyumlarından olub. "Rusiya Müsəlmanları Firqəsi"nin, Azərbaycan Xalq Cümhuriyyəti dövründə ölkənin əsas aparıcı siyasi qüvvələrindən sayılan "İttihad" partiyasının rəhbərliyində fəal şəkildə təmsil olunub. "İttihad" qəzetinin nəşrini maliyyələşdirib. Müslüm Maqomayevin Sabunçuda teatr yaratmasına dəstək verib. Mədənlərində çalışan fəhlələr üçün evlər, onların övladlarına məktəblər tikdirib.

Bununla yanaşı, əsərdə Bəşir bəy Aşurbəyovun yeri gələndə ələ silah götürən, qoçuları hədlərini aşmağa qoymayan, hətta Bakıya səfər etmiş məşhur rus yazıçısı Maksim Qorkini ölümdən xilas edən, Bakıda azğın erməni daşnaklarının azərbaycanlılara qarşı törətdikləri qırğınlar zamanı daşnaklarla atışan, şəhərdəki şəxsi nüfuzuna görə düşmənləri tərəfindən şərlənib bir neçə ilini sürgündə keçirməli olan igid obrazını da görürük.

Ona görə də İradə Əliyeva kitabında haqlı olaraq belə bir sual qoyur: "O kim idi?! Sənayeləşmə proseslərində yaxından iştirak edən neft milyonçusu, təhsilin, mədəniyyətin inkişafına təmənnasız dəstək verən ziyalı messenat, ittihad ideologiyasına bağlı siyasət adamı, yoxsa Bakının ən adlı-sanlı insanlarının, hətta qoçularının da hörmətlə yanaşıb hesablaşdıqları nüfuz sahibi?! Zəmanəsinin parlaq simalarından olan Bəşir bəy Aşurbəyov bütün bu təyinləri öz şəxsiyyətində bir araya gətirir və Nargin adasında yarıda qırılmış ömrü ilə böyük bir tarixin hekayətini nəql edir". Oxucu bu hekayəti diqqətlə oxuyur, Bəşir bəy və onun zəmanəsi haqqında özü dəqiq qənaətlərə gəlir.

Müəllifin oxuculara təqdim etdiyi kitabın daha bir dəyərli cəhəti burada Bəşir bəy Aşurbəyovla yanaşı onun qayınatası, Gəncəbasar bölgəsinin nüfuzlu şəxsiyyətlərindən olmuş Allahyar bəy Zülqədərovun həyat və fəaliyyətinə də geniş yer verilməsidir. Kitabı oxuduqca sovet ideologiyasının illərlə şərlədiyi, atdığı böhtanlar, yalanlar toz-duman kimi gözlərimiz önündən çəkilir. Ötən əsrin əvvəllərində baş verənlərə tamam başqa bir baxış bucağı formalaşır. Tarixi həqiqətlər bütün aydınlığı ilə gözlərimiz önündə canlanır. Bolşevizmin amansızlıqla həyata keçirdiyi "qırmızı terrorun" həm ayrı-ayrı insanların, həm də ümumən xalqın həyatında nə qədər böyük faciələrə səbəb olduğu bütün dəhşəti ilə görünür.

Keçmişimizi öyrənmək və öyrəndiklərimizdən nəticə çıxarmaq üçün belə kitablara çox ehtiyacımız var. Bu mənada Əməkdar jurnalist İradə xanım Əliyevanın "Bəşir bəy Aşurbəyov və zəmanəsi" kitabı oxuculara çox gözəl mütaliə zövqü yaşatmaqla yanaşı, eyni zamanda tarixi oçerk janrına maraq göstərən qələm sahiblərimizi, tarixçi-alimlərimizi də yeni əsərlərlə bu faydalı missiyaya dəstək olmağa dəvət edir.

**Elçin VƏLİYEV,**
**tarix üzrə fəlsəfə doktoru**



Əvəz Sofuoğlu

### Xəyallar gerçəyi dəyişə bilməz

Dalıb xəyallara düşündüm səni,
Xəyallar gerçəyi dəyişə bilməz.
Qəlbim qəlbim ilə bir döyünməsə,
Ruhum ruhun ilə görüşə bilməz.

Gözlərim gözünə sarı baxmasa,
Əllərim əlinə sarı qaçmasa,
Dodaq dillənməsə, dil söz açmasa,
Eşqim eşqin ilə qovuşa bilməz.

Məndə bir sevgi var sayı en qədər,
Bərabəri yoxdu tayı en qədər,
Əvəzin harayı, hayı en qədər,
Sazda dilə gəlib danışa bilməz.

*Bir də bu dünyanı dolaşaq gedək*

*Əziz dostum, şəhid Araz Əmilovun əziz xatirəsinə*

Əziz dostum əlini ver əlimə,
Bir də bu dünyanı dolaşaq gedək.
Vətən uğrunda, Vətən yolunda,
Silaha sarılaq vuruşaq gedək.

Anaların göz yaşını axıdan,
El-obanı, ev-eşiyi dağıdan,
Xain düşmənlərdən, zalım yağıdan,
Haqqı-ədaləti soruşaq gedək.

Şəhidlər ölməzdir el ağlaması,
Gözlər yaş tökməsin, dil ağlamasın,
Bülbüllər kor olub gül ağlamasın,
Haqqın dərgahına qovuşaq gedək.

Döyüşə-döyüşə gedək qabağa,
Azadlıq gətirək arana-dağa,
Candan əziz sevdiyimiz torpağa,
Bükülüb bayrağa qarışaq gedək.

*****

Yenə uşaqlığım yadıma düşüb,
Dərin xəyallara dalıram bu gün,
Nakam məhəbbətim, zalım gözəlin,
Alışıb odunda yanıram bu gün.

Qismətdən, qədərdən qaça bilmədim,
Qəlbimi özgəyə aça bilmədim,
Nə vaxt qar ələndi, saça bilmədim,
Ötüşən illəri anıram, bu gün.

Günahkar gəzirdim indi tapmışam,
Qəflət yuxusunda şirin yatmışam,
Özüm şəkərimə zəhər qatmışam,
Özüm günahkaram, qanıram bu gün.

Qəfildən bir külək əsdi üzümə,
İlk eşqim, ilk sevgim dəydi gözümə,
Sofuoğlu, deyirəm özüm-özümə,
Elə yanmalıyam, yanıram bu gün.

## Aqrar sahənin sığortası çox risklidir

Dövlətin bu sahədə müəyyən təşviqedici addımları marağın artmasına səbəb olan amillərdən birinə çevrilə bilər



**Ölkənin kənd təsərrüfatında, xüsusilə də meyvə tədarükü ilə məşğul olan fermer və sahibkarlar üçün mühüm yenilik baş verib.**

Azərbaycanda iqtisadi məqsədlərlə ən çox əkilən meyvələr - xurma, ərik, şaftalı, albalı, gilas, alça, gavalı, heyva, alma, armud, çiyələk, nar Nazirlər Kabinetinin qərarı ilə dövlət dəstəkli aqrar sığortanın əhatə etdiyi məhsulların sırasına daxil edilib.

Kənd Təsərrüfatı Nazirliyindən verilən məlumata görə, dövlət dəstəkli olduğu üçün bu əkinlərin sığorta haqqının yarısını dövlət ödəyir.

Həmin bitkilər yalnız ölkənin ərzaq təhlükəsizliyinə görə deyil, həm də xaricə ixrac baxımından mühüm əhəmiyyət daşıyır. Sadalanan meyvələrin xaricə ixracı Azərbaycana təkcə 2021-ci ildə 180 milyon dollardan artıq gəlir gətirib.

Meyvələr aqrar sığorta qaydalarına müvafiq, yanğın, zəlzələ, torpaq sürüşməsi, qasırğa, fırtına, sel, leysan, ildırım vurması, şaxtavurmadan, normadan artıq yağan qar yağıntıları, üçüncü şəxslərin hərəkətləri və s. risklərdən sığortalanır.

**Bununla bağlı iqtisadçı-ekspert Natiq Cəfərli bildirib ki, özəl sığorta şirkətlərinin aqrar sektorda sığorta əməliyyatları aparmağında marağı çox azdır:** "Çünki aqrar sahənin sığortası çox risklidir. Dövlətin bu sahədə müəyyən təşviqedici addımları marağın artmasına səbəb olan amillərdən birinə çevrilə bilər. Sığorta zəmanəti olan fermerlərin bu istiqamətə daha çox diqqət göstərməsi təbiidir. Amma ödənişlər elə səviyyədə olmalıdır ki, özəl sektorun da həmin sahələr və kənd təsərrüfatında sığorta işlərinin genişləndirilməsi üzrə marağı olsun. Qarşılıqlı istək çərçivəsində məsələnin həlli kənd təsərrüfatına kifayət qədər müsbət təsir göstərə bilər".

**Şücayət**

Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun kollektivi İnstitutun icraçı direktoru, AMEA-nın müxbir üzvü Məhəmməd Babanlıya yaxın qohumu, məşhur boksçu, SSRİ-nin idman ustası, Əməkdar məşqçi, Beynəlxalq dərəcəli hakim, Fəxri Bədən Tərbiyəsi və İdman işçisi, prezident təqaüdçüsü Tofiq Xanlar oğlu Babanlının vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin!**

**Elan**

Bakı şəhəri, 94 nömrəli məktəbdə 9 illik təhsil almış Levickaya Sabina Baxtiyarovnanın attestatı 2015-ci ildə itdiyi üçün etibarsız sayılır.

Tsarev Rauf Xayamoviçə 81 №-li tam orta məktəbdən verilən AK 154472 saylı şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

# Ey gidi dünya!..

## Nursultan Nazarbayevin ailə gizlinlərinə işıq düşdü

*(Əvvəli səh: 8-də)*



**Hətta Astaydan qaçırdı, uzaqdan onu görəndə yolunu dəyişdirirdi. Qız böyüdükdə ondan dəqiq cavab tələb etməyə başladı: toy nə vaxtdır? Hətta belə söhbət də olmuşdu ki, oğlan razı deyilsə, açıq desin, qız da başqasına ərə getsin. Və yeniyetmə Nursultan həyatının ilk cəsarətli addımını atdı. O, "nişanlısını" azad etdi. Sonrasa təhsil ardınca getdi.**

1950-ci illərdə Dneprovski Metallurgiya zavodu nəzdindəki texniki peşə məktəbinə daxil oldu. Təhsildən əlavə, sərbəst güləşlə də məşğul olurdu. Günlərin bir günü Nursultan idman zalında bədii gimnastika ilə məşğul olan Lyudmila Kalnış adlı qızla tanış olur. Qıza qarşı çox nəvazişli imiş. Lyudmila ağ ciyər xəstəliyinə tutulanda hər gecə qızın yatdığı palatanın pəncərəsi altında gəlib dayanarmış. Nursultan məktəbi bitirib, Lyudmila isə hələ 1 il də təhsil almalıymış. Nursultan qızgilə gedir və anasından evlənmələri üçün razılıq almaq istəyir. Lakin həyəcandan konkret bir söz deyə bilmir. Bir neçə gündən sonra qıza evlənmək təklifini rəfiqəsi ilə göndərir. Amma gözlənilmədən "yox" cavabı alır. Beləcə onlar ayrılırlar. Deyilənə görə, sonralar Lyudmila hərəkətindən peşman olub. Amma artıq çox gec idi. Hətta Nazarbayev prezident olanda Lyudmila bir məsələ ilə bağlı ona müraciət edib, Prezident ilk sevgisi xatirinə ona kömək edib. Nazarbayev Uşkonur yüksəkliyində çalışdığı zaman qırğız qızı Turqan Abdikerimova ilə tanış olur. Gənclər dostlaşır və uzun müddət məktublaşırlar. Arabir görüşür, gələcək haqqında planlar qururlar. Sonralar Turqan xatırlayacaq ki, Nursultan gənc yaşlarında çox yaxşı gitara çalır və oxuyurdu. 1961-ci ildə Nursultan Qırğızıstanın paytaxtı Frunze şəhərinə qızın ailəsi ilə görüşüb evlənmək icazəsi almağa gedir. Nursultan sevgilisinə bönövşəyi xrizontemalardan gel buketi və xalis yundan 2 sviter hədiyyə aparırmış. Qızın anası kürəkəni bəyənir, amma ata qəti şəkildə razılaşmır və "yox" cavabı verir. Qız atasına qarşı çıxa bilmir və sevgililər ayrılır. Nursultan Qaraqanda şəhərinə Metallurgiya Kombinatına işləməyə gedir, Turqan tibb üzrə təhsil almaqda davam edir. Nursultan gələcək həyat yoldaşı Sara Konakayevanı da burada - domna sobasının qarşısında görür. Onların ilk rəqsi Saranın yadındadır; gənc, yaraşıqlı poladəridən onu rəqsə dəvət edir. Sara Nursultanın xoşuna gəlir. Amma yenə də Nursultanı təhdid edənlər tapılır: qızdan əl çək, yoxsa səni... Lakin gələcək prezident bu dəfə daha ürəkli və cəsur tərpənir. 1962-ci ildə onların toyu olur. Toyda 60 qonaq iştirak edir. Gənclərə hədiyyə olaraq Komsomol Təşkilatı kiçik bir mənzilin açarlarını təqdim edir. Mənzil hələ tikilib başa çatmayıbmış. Dostların hərəsi bir əşya hədiyyə alır. Nursultanın valideynləri isə bu illər ərzində oğullarının onlara göndərdiyi pulu toplayırmış. Toyda Nursultana zərfin içində külli miqdarda pul hədiyyə edirlər. Rəsmi məlumatlara görə, Nursultan Nazarbayev və Sara Nazarbayeva 60 ildir birgədir. Onların 3 gözəl qız böyütdülər. Nəvələrinin dünyaya gəlməsinə sevindilər. Son illərdə Nursultan Nazarbayev haqqında indiyədək eşidilməyən bəzi məlumatlar üzə çıxdı. Bunları Nazarbayevin böyük qızı Dariqanın həyat yoldaşı olmuş Rahat Əliyev yaydı. Keçmiş kürəkən, bəlkə də acığından belə məlumat yaydı ki, Nursultan Nazarbayev müəyyən müddət prezident təyyarəsində stüardessa işləyən Gülnarə Rakişeva ilə uzun illər nikahda olub. Və bu nikahdan 2 qız uşağı dünyaya gəlib. Prezident ikinci ailəsi üçün Astanada xüsusi ev tikdirib. N.Nazarbayevin daha bir sevgilisinin gənc və gözəl xanım Asel İsabayeva olduğu deyilir. Hətta ona "Miss Qazaxıstan" titulunun da Nazarbayevin göstərişi ilə verildiyi bildirilir. Qeyri-rəsmi məlumatlara görə, Asel İsabayevadan Nursultan Nazarbayevin 2 oğlu var - Tauman və Bayken. Qeyd edilir ki, çoxarvadlılıq Qazaxıstanda qadağan deyil. Heç leqal da deyil. Əhalinin bir qismi buna loyal yanaşır, qadınlarsa, gözlənildiyi kimi etiraz edirlər.

**Hazırladı: Məlahət Rzayeva**

**Təsisçi və baş redaktor: Akif Aşırlı**
**Baş redaktorun ı müavini: Yusif Nəzərli**
**Redaktor: Ayyət Əhməd**

**Reportyorlar qrupu:**
**Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir**

**Texniki heyət:**
**Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova**

**Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur**

**Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.**
**Lisenziya: 535**
**www.sherg.az**
**e-mail: sherq-1996@mail.ru**

**Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.**
**Telefon: 447-32-41**
**538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
**SWIFT BIK AII-BAZ2X h/h**
**AZ17AIIB38070019441100466111**
**Kod 200112 M/H**
**AZ37NABZ01350100000000001944**
**VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 94**



## Azərbaycanlı aktrisa və sevgilisi koronavirusa yoluxdu

**Türkiyədə məşhurlaşan Azərbaycan əsilli aktrisa Nəsrin Cavadzadə koronavirusa yoluxub.**

Onun rol aldığı "Üç kuruş" filminin rejissoru Sinan Öztürk və aktyor Uraz Kaygılaroğlunun da koronavirus testi müsbət çıxmışdı.

*Qeyd edək ki, aktrisanın nişanlısı Gökhan Alkan da koronavirusa yoluxub. Serial məcburi dayandırılıb.*

## Gizlin görüşdülər

Aslı Enver onunla sevgilidir



**Aktrisa Aslı Enver yeni eşqə yelkən açıb.**

Axşam.az türk mediasına istinadən xəbər verir ki, sənətçinin iş adamı Önder Öztarhanla sevgili olduğu bildirilib. İddiaların yaranmasına səbəb iş adamının avtomobilinin Aslının evinin önündə görüntülənməsi olub.

Cütlüyün paparatsilərə tuş gəlməmək üçün gizlin görüşdüyü deyilir.

*Qeyd edək ki, Aslı daha əvvəl müğənni Murad Bozla münasibətdə olub. Ondan ayrıldıqdan sonra uzun müddət heç kimlə münasibət qurmayıb.*







# Ey gidi dünya!..

## Nursultan Nazarbayevin ailə gizlinlərinə işıq düşdü

**Məlahət Rzayeva**

**Qazaxıstanın ilk prezidenti, Elbaşı tituluna sahib, türk dünyasının ağsaqqalı, başbiləni, böyüyü, az qala Türküstanın Mövlanəsi hesab edilən, hazırda harada olduğu, nə işlə məşğul olması bilinməyən Nursultan Nazarbayev! Ey gidi dünya!.. Bir həftə əvvəl onun haqqında kim əyər-əskik söz deməyə cürət edərdi?! Dövran dəyişdi.**

Və hökmlü bu insan haqqında indi nələr yazılmır?!. Sevgililəri, 1 yox, 3 həyat yoldaşının, 2 deyil, daha 3 qızının, başqa qadından daha 2 oğlunun olması... Oxucularına maraqlı materiallar təqdim edən "Şərq" bu dəfə "kulturologiya.ru" saytına istinadən Nursultan Abışeviçin ailə sirlərinə işıq tutur.

Nursultan Nazarbayev ənənəvi qazax ailəsində dünyaya gəlib. Hətta sovet illərində də qazaxlar ənənələrindən vaz keçmirdi. Qazax ailələrində belə bir ənənə var ki, körpə dünyaya gələndə onu adaxlayırlar. Buna göbəkkəsdi də demək olar. Ailələr övladlarının böyüyəndə kiminlə evlənəcəyinə uşaq hələ körpə ikən qərar verirlər. Qismət, tale öz yerində, amma ailələr bu ənənəni əsrlərdir davam etdirir. Nursultan üçün də ata-anası nişanlı seçmişdi. O zaman Nursultanın cəmi 5 yaşı vardı, gələcək gəlinsə hələ beşikdə yatırdı. Valideynləri dostlarının evinə



qız uşağının dünyaya gəlməsi münasibətilə gözaydınlığına gedib və orada belə əhd bağlayıblar ki, Astay adı qoyulmuş qız uşağı böyüyəndə Nursultanın həyat yoldaşı olacaq. Valideynləri əmin idi ki, kimsə onların bu əhdini pozmayacaq, pozmağa cürət də etməyəcək. Yenə də adətə görə, gələcək gəlin, oğlan evində tez-tez qonaq olurdu. Bu, qızın gələcək ər evinə kiçik yaşlarından alışması üçün idi. Nursultana isə valideynlər arasında bağlanan əhd-peyman sərf etmirdi. Onun öz planları vardı ("Əhməd haradadır?" filminin qəhrəmanı kimi). Nursultanın sinif yoldaşları da onun göbəkkəsdi adaxlandığını bilirdiər və onu cırnadırdılar. Bu da onu qıcıqlandırırdı.

*(Davamı səh: 7-də)*





## Təyyarə sürmək arzusu...

### Kabinəyə soxuldu və hər şeyi xarab etdi



**Təyyarə sürmək arzusunu yerinə yetirmək üçün kabinəyə soxulan sərnişin idarəetmə sistemini tamam sıradan çıxarıb.**

**Hadisə Hondurasda "American Airlines" sərnişin təyyarəsində qeydə alınıb. Oxu.az xəbər verir ki, məlumata görə, San Pedro Sula - Mayami reysi ilə uçan təyyarədə olan sərnişinlərdən biri enişdən sonra açıq kabinəyə girib və xaotik şəkildə rıçaqları çəkməyə, paneldəki düymələri basmağa başlayıb.**

**Kapitan davakar sərnişini dayandırmağa çalışıb, bundan sonra qanun pozucusu açıq pəncərədən tullanmaq istəyib. Hadisə yerinə gələn hüquq-mühafizə orqanlarının əməkdaşları həmin şəxsi həbs ediblər. Onun xəsarət alması barədə məlumat verilməyib.**

## Qəzəblənən fil sərnişin avtobusunun pəncərəsini sındırdı

### Heyvanın hərəkəti sərnişinləri qorxuya salsa da, onlardan heç biri xəsarət almayıb



**Hindistanın Odişa ştatının Mayurbhanc rayonunda qəzəbli fil sərnişin avtobusunu təqib edərək pəncərəsini sındırıb.**

**Oxu.az xəbər verir ki, hadisənin görüntüləri yerli media tərəfindən yayımlanıb.**

**Sərnişin avtobusu Balasore şəhərindən hərəkət edərək Tikarpada Vəhşi Təbiət Qoruğunun yaxınlığından keçib. Birdən yolda tənha bir fil peyda olub.**

**O, avtobusun arxasınca qaçaraq nəqliyyat vasitəsini itələyib və pəncərəsini sındırıb. Heyvanın hərəkəti sərnişinləri qorxuya salsa da, onlardan heç biri xəsarət almayıb. "Biz filin avtobusu aşıracağını düşündük. Hamı çox qorxdu", - deyə videonun müəllifi bildirib.**

**Heyvanın avtobusa hücumu hadisənin şahidi olan yaxınlıqdakı kənd sakini tərəfindən lentə alınıb.**

## 16 illik münasibət bitdi

### Bu barədə cütlük birgə məlumat yayıb



**Məşhur ulduzlar Ceyson Momoa və Liza Bone boşanır.**

**Axşam.az xarici mediaya istinadən xəbər verir ki, bu barədə cütlük birgə məlumat yayıb.**

**Onlar aralarındakı hörmət və sevgi hissini saxlayaraq bu addımı atdıqlarını vurğulayıblar.**

***Qeyd edək ki, 2005-ci ildən münasibətdə olan cütlük 2017-ci ildə ailə həyatı qurub. Onların biri oğlan, digəri qız olmaqla 2 övladı var.***



# Bitişik və ölən əkizinin xəyalını gerçəkləşdirdi

## Həyatda qalan bacı indi 1 milyon təqibçi ilə Tik-Tok fenomenidir

**Statistikaya əsasən siam əkizləri 40 min doğumda-bir dünyaya gəlir. Və 200 min siam əkizindən yalnız 1-i həyatda qalır. Tibdə müxtəlif orqanları bir-birinə bitişik halda dünyaya gələn körpələrə siam əkizləri deyilir və onların həyatda qalması möcüzə sayılır. Adətən siam əkizlərini bir-birindən ayırmaq üçün xüsusi cərrahi əməliyyatlar gerçəkləşdirlir.**





Bir müddət yaşayan əkizlər, müəyyən zaman keçdikdən sonra vəfat edirlər. Bəzən hər ikisi, bəzən də əkizlərdən biri. "Şərq" "Milliyet.com"a istinadən bildirir ki, ağır həyat şərtləri altında yaşayan siam əkizlərindən biri 22 il əvvəl dünyaya gəlmiş Qabriele və Mikela adlı qızlardır. Doğulduqdan 8 ay sonra əməliyyat olunaraq bir-birilərindən ayrılıblar. 13 yaşınadək hər şey normal olub. Bacılar həyatlarına davam edib, bir-birilərini çox seviblər. 2011-ci ildə Mikele xəstələnib. Buna səbəb qızın mədəsinin infeksiyaya yoluxması olub. Həkimlər nə qədər cəhd etsə də, Mikele sağalmayıb və qısa müddət sonra vəfat edib. Əkiz tayının ölümü Qabrielə ağır təsir edib. Gənc qız özünü sanki bacısından yenicə ayrılmış, bir hissəsi yoxmuş kimi hiss etməyə başlayıb. 22 yaşlı Qabriele tək qalıb. Uzun müddət bu itkiylə barışa bilməyib. Qabriele daxilindəki kədəri, üzüntünü bu günlərdə Tik-Tok üzərindən paylaşıb. Dəstək olanların sayı artdıqca gənc qız daha da ürəklənib. Və həyatı, bacısı haqqında daha bir neçə video hazırlayaraq sosial şəbəkədə yayıb. Qabrielenin izləyici sayı hazırda 1 milyonu ötür. Siam əkizi qız Tik-Tok "ulduzu"na dönüb. **Qabriele deyir ki, videoları yaymaqda məqsədi ağır həyatını anlatmaq, bacısının xatirəsini yaşatmaqdır:** "Mikelenin ən böyük arzusu məşhur olmaq idi. Mən onun arzusunu gerçəkləşdirirəm". Qabriele insanlardan bu qədər böyük dəstək görəcəyinin gözlənilməz olduğunu da deyib: "Gözləməzdim ki, insanlar bu qədər maraq göstərəcək, mənə dəstək olacaqlar. Çox xoşbəxtəm". Qabriele bir ayağını itirib, protez geyinir. Buna rəğmən özünü xoşbəxt sayır, qarşıda onu gözəl günlər gözlədiyinə inanır.

**Məlahət**

## Göbək rəqsi oynayan müəllimə işdən qovuldu

"Rəqs etmərəm daha..."



**Misirli müəllimə gəmi gəzintisi zamanı rəqs etdiyinə görə işdən qovulub.**

BBC Türkcə xəbər verir ki, Aya Yousef adlı müəllimə Nil çayıyla üzən bir gəmidə keçirilən sosial tədbirə qatılıb. Bu sırada müəllimə gəmidəki ziyarətçilərdən bir neçəsi ilə, onlar arasında kişilər də var, rəqs edib. Onun rəqsi başqa bir həmkarı tərəfindən videoya çəkilib və sosial şəbəkədə yayılıb. "Fırtına" da bundan sonra qopub. Nil Deltasındakı Dakahlia Valiliyində bir neçə ildir ərəb dili müəllimi işləyən qadın işdən çıxarılıb. Bu da qadın haqları müdafiəçiləri ilə mühafizəkar təbəqə arasında mübahisələrə yol açıb. İşdən qovulan müəllimə peşman olduğunu dilə gətirib və "Nildəki gəmidə keçirdiyim 10 dəqiqə həyatımı qaraltdı. Bir daha əsla rəqs etməyəcəm", deyib. Müəllimənin hətta intihar etmək istədiyi də xəbər verilir. Qərbyönümlülər müəllimıni müdafiə etdikləri halda, mühafizəkarlar bu hərəkəti unatcverici adlandırır. Twitter istifadəçilərindən biri "bu, ağır zamanlar keçirdiyimizin sübutudur. Hər şeyə izn var..." yazıb. Bir başqası isə "Misirdə təhsilin səviyyəsi düşdü", yazıb. Qadın haqları müdafiəçiləri isə müəllimənin yersiz qurban edildiyini bildirir. Bir məktəb müdiri isə Aya Yousefə dəstək məqsədilə qızının toyunda rəqs edərkən çəkilmiş fotosunu paylaşıb. Misir Qadın Haqları Mərkəzi başqanı doktor Nihad Abu-Qumsan isə işdən çıxarılan müəlliməyə öz ofisində iş təklif edib. Həm də müəllimənin hüquqlarını məhkəmədə qoruyacaqlarını bildirib. Görünür, bu hərəkətlilik Misir Təhsil Nazirliyini geri çəkilməyə məcbur edib. Aya Yousef başqa bir məktəbə müəllim göndərilib. A.Yousef işdən çıxarılmasına qarşı hazırladığı şikayət ərizəsində "şagirdlər önündə rəsq etmədim" deyərək özünü müdafiə edib. Həmçinin videonu çəkib yayanı məhkəməyə verəcəyini deyib.

**Məlahət**

## Türkiyəli məşhur aktrisa Bakıya gəlir



**Türkiyəli aktrisa Hazal Kaya Azərbaycana gələcək.**

Kino ulduzu yanvarın 21-də keçiriləcək "Benden Ne Olur?" filminin qala gecəsində iştirak edəcək.

Filmdə Kaya ilə yanaşı Onur Tuna, Nur Fettahoğlu və digər aktyorlar da çəkilib.

Qeyd edək ki, Hazal Kaya "Adını Feriha Koydum" və "Bizim Hikaye" seriallarında çəkildiyi rollara görə Türkiyənin ən məşhur aktrisalarının birinə çevrilib.(apa)

*2016-cı ildə "Worlds Most Beautifuls" internet saytı onu dünyanın ən gözəl qadınları arasında beşinci yerə layiq görüb.*